

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 yanvar 2026-cı il, cümə
№ 004 (7071)
Qiymətı 60 qəpik





## Prezident İlham Əliyev: Azərbaycan dünya miqyasında gözəl imic və etibarlı tərəfdaş adı qazanıb

## Tarixi rekord: generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir

Bax səh. 2

## Qalib Azərbaycan modeli: sülhə sadiqlik, güclü ordu strategiyası...

Bax səh. 3

## 1992-ci ilin 24 oktyabrı...

Bax səh. 4



## Heç bir problem qalmayıb...

Bax səh. 3

## Azərbaycan enerji təhlükəsizliyində rolunu artırır

Bax səh. 5

## Ana dili: milli kimliyin və dövlətçiliyin əsası...

Bax səh. 4

## Dəm qazı təhlükəsi...

Bax səh. 6

## Türk Ticarət-Sənaye Palataları Birliyinə Qazaxıstan sədrlik edəcək

Bax səh. 7

## Azad ərazilər turizm mərkəzinə çevrilir

Bax səh. 6



## Karakas icazəli qərarlar verir



Bax səh. 7

# Tarixi rekord: generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir

## Prezident İlham Əliyev: Azərbaycan dünya miqyasında gözəl imic və etibarlı tərəfdaş adı qazanıb




Yanvarın 8-də Bakıda, “Gülüstan” sarayında Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib. Dövlət başçısı bildirib ki, bu gün ölkəmizin həyatında əlamətdar bir gündür, “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının istismara verilməsini qeyd edirik: “Bu, çox önəmli hadisədir. Ölkəmizin enerji potensialını gücləndirəcək stansiya bu gün artıq fəaliyyətə başlayır. Əminəm ki, 240 meqavat gücündə stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcəkdir. Mən yaxşı xatırlayıram ki, düz dörd il bundan əvvəl - 2022-ci ilin yanvar ayında bu salonda bu stansiyanın təməlini qoymuşduq. Bu illər ərzində fəal iş aparılmışdır və bu gün biz bu gözəl hadisəni birlikdə qeyd edirik. İlk növbədə, bu stansiyanın tikintisində əməyi keçmiş bütün insanlara, şirkətlərə təşəkkürümü bildirmək istəyirəm, ilk növbədə, investor olan “ACWA Power” şirkətinə, onun rəhbərliyinə. Bu, “ACWA Power” tərəfindən Azərbaycanda inşa edilmiş birinci bərpaolunan enerji elektrik stansiyasıdır, ancaq sonuncu deyil. Şirkətin daha böyük planları var və Azərbaycan dövləti bu planları tam dəstəkləyir. Onu da bildirməliyəm ki, “ACWA Power” şirkəti bu sahədə dünyada aparıcı şirkətlərdən biridir və eyni zamanda, Azərbaycan qurumları ilə əməkdaşlıq əsasında yeni layihələrin icra edilməsində maraqlıdır. O cümlədən ölkəmizdə ilk dəfə inşa ediləcək Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsini də yenə də bu şirkət investor kimi icra edəcəkdir”.

Prezident bu stansiyanın tikintisində baş podratçı kimi iştirak edən “Power China” şirkətinin fəaliyyətini qeyd edib. Deyib ki, bu şirkət bu layihədə podratçı kimi iştirak edir, ancaq digər layihələrdə, o cümlədən investor kimi iştirak edəcək. Əminəm ki, bu şirkətin nəzərdə tutduğu bütün planları Azərbaycanda həyata keçəcəkdir. “Təbii ki, Azərbaycan energetiklərinin əməyini qiymətləndirməliyəm. Çünki son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə Günəş elektrik stansiyasının tikintisinə də başlanılmışdır”, - deyən dövlət başçısı vurğulayıb ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilib. Demək olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənib. Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən üç dəfə artıb. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir: “Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək. Onu da bildirməliyəm ki, keçən il Mingəçevirdə yeni elektrik stansiyasının açılışını qeyd edərkən bir daha əmin olduq ki, Azərbaycanda bu iki proses, yəni ənənəvi generasiya gücləri və bərpaolunan generasiya gücləri paralel şəkildə aparılmalıdır. Ancaq o təqdirdə biz istədiyimiz nəticəyə nail ola bilərik. Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə Günəş elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır”.






Prezident İlham Əliyev onu da qeyd edib ki, bu gün ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etmək mümkündür. “Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 gigavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq. Mən buna şübhə etmirəm. Ona görə xarici investorları həm bu sahəyə, həm də böyük həcmdə elektrik enerjisi tələb edən digər sahələrə dəvət edirəm. Xüsusilə süni intellekt, data mərkəzlərinin yaradılması və böyük enerji gücünə tələbat olan digər sahələrə investisiya qoymağa dəvət edirəm. O cümlədən Azərbaycan şirkətlərini də”, -deyən dövlət başçısı ölkəmizdə gözəl investisiya iqliminin olduğunu söyləyib. Vurğulayıb ki, biz ölkəmizə 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilmişik. Bu gün ölkəmizin maliyyə vəziyyəti çox müsbətdir. Bizim bu sahədə apardığımız islahatlar, əldə edilmiş uğurlar dünyanın aparıcı reytinq agentlikləri tərəfindən də qiymətləndirilir. Təsadüfi deyil ki, bu gün bizim kredit reytinqimiz daha da artırılıb, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırılıb: “Bizim xarici borcumuz çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun təqribən 6 faizindən bir qədər çoxdur. Valyuta ehtiyatlarımız xarici borcu 16-17 dəfə üstələyir və bu göstəriciyə görə, Azərbaycan dünya miqyasında aparıcı ölkələr sırasındadır. Yəni bütün bu və başqa amillər deməyə əsas verir ki, Azərbaycana qoyulan sərmayə xeyir gətirəcək, mənfəət gətirəcək. Bu gün Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir məkandır. Ölkəmizdə siyasi, iqtisadi və sosial sabitlik hökm sürür. Beş ildir ki, ölkəmiz rəsmən sülh şəraitində yaşayır, ölkəmizdə genişmiqyaslı quruculuq işləri aparılır. Ona görə bugünkü mərasimin timsalında xarici şirkətlərin bizə olan inamını da görürük və bu inam tam əsaslıdır”.



Dövlət başçısı gələcək planlarla bağlı da danışıb. Nəzərə alsaq ki, bizdə bərpaolunan enerji potensiali çox artacaq, əlbəttə, biz bu enerjini saxlamaq üçün infrastruktur yaratmalıyıq. Bu məqsədlə ölkəmizdə tarixdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi də yaradılır. Birinci layihə 250 meqavatlıqdır. Bunu “AzərEnerji” öz vəsaiti hesabına icra edir. Ancaq bizim artan potensialımız tələb edəcək ki, belə Batareya Enerji Saxlanc sistemlərinin sayı daha da çoxalsın və mən xarici investorları da bu işə dəvət edirəm: “Generasiya gücləri ilə bağlı isə təkcə bunu demək kifayətdir ki, imzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər altı, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 gigavat gücündə külək və Günəş elektrik stansiyaları inşa ediləcək. Əgər biz su elektrik stansiyalarının potensialını əlavə etsək, bizim potensialımız təbii ki, daha da böyüyəcək. Biz son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa etmişik. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur”.

Azad edilmiş ərazilərin potensial su elektrik stansiyalarının xəritəsi də tərtib edilib və ancaq o bölgədə biz təqribən 500, bəlkə də 600 meqavat gücündə kiçik su elektrik stansiyalarını inşa edəcək. Prezident demək olar ki, bunun yarısının artıq hazır olduğunu, bütün ölkənin, o cümlədən azad edilmiş ərazilərin vahid şəbəkə ilə birləşdirildiyini və enerji axınının istənilən istiqamətə göndərilməsinin, qəbul edilməsinin də təmin olunduğunu söyləyib: “Bu gün isə biz bu gözəl hadisəni qeyd etməklə həm görülmüş işlərə bir növ yekun vururuq və ən əsası gələcək planlarla bağlı da öz baxışlarımızı bölüşürük. Çünki yenə də deyirəm, Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması xarici investorlar tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrdir. Bu layihələrə bu günə qədər 100 milyonlarla dollar vəsait qoyulub. Mən bir daha həm xarici, həm yerli investorların fəaliyyətini bu qərara görə qiymətləndirirəm və onlara bir daha deyirəm ki, Azərbaycana sərmayə qoyun. Azərbaycan dövləti xarici sərmayələri daim qoruyur, bizim bir çox neft kontraktlarımız artıq uzun illərdir icra edilir və qəbul edilmiş qərarlarda, kontraktlarda bir dənə də olsun nəinki paraqraf, nəinki maddə, hətta bir söz də dəyişilmir və dəyişilməyəcək. Bu da xarici investorları ölkəmizə cəlb etmək üçün çox vacib bir amildir. Çünki Azərbaycan etibarlı dövlətdir. Sözümüz imzamız qədər dəyərlidir və qanunidir. Bütövlükdə energetika sahəsində gedən proseslərə nəzər saldıqda görürük ki, bu gün bəlkə də enerji təhlükəsizliyi məsələləri daha qabarıq şəkildə ortaya çıxır. Biz uzun illərdir bu istiqamətdə fəaliyyət göstəririk. Bizim neft ixracımız, qaz ixracımız, neft məhsullarının ixracı, elektrik enerjisinin ixracı, neft-kimya məhsullarının, gübrələrin ixracı bu gün bir çox ölkələr üçün, onların enerji təhlükəsizliyini təmin etmək üçün imkan yaradır. Azərbaycan burada çox məsuliyyətli və etibarlı tərəfdaş kimi özünü göstərir, dünya miqyasında gözəl imic və etibarlı tərəfdaş adı qazanmışdır”.

Tədbirdə Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini Nasser Əl-Qahtani, Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Lu Mey, “ACWA Power” şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan çıxış ediblər. Daha sonra “Xızı-Abşeron” Külək Elektrik Stansiyası layihəsi haqqında qısa videoçarx nümayiş olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və “ACWA Power” şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasını işə salıblar.

# Heç bir problem qalmayıb...

## Prezident İlham Əliyev: Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir



Yeni iqtisadi nizamın formalaşdığı bir zamanda Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət tapması, tanınması qlobal layihələrin bizim coğrafiyada təşəkkülünü təmin edir. Qeyd edək ki, Azərbaycanda yürüdülən dövlət siyasəti və bu siyasətin əsas prioritet istiqamətləri ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmasını təmin edib - Asiya ilə Avropanın "təbii körpüsü" adlandırılan bir regionda Azərbaycanın sülh və sabitliyin təmin olunması istiqamətində apardığı siyasət həm də iqtisadi dividendlər vəd edir. Burada enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlər önə çıxır ki, regional səviyyədəki əməkdaşlıqlar yeni mərhələdə qlobal inkişaf konsepsiyasının aparıcı coğrafi ünsürü kimi müəyyənləşə bilir. Bu mənada, Zəngəzur dəhlizi (TRIPP) layihəsi əhəmiyyəti ilə seçilir.

**"Demişdim ki, istənilən yolla açılacaq"...**

Zəngəzur dəhlizinin yaradılması ideyası Azərbaycan dövləti tərəfindən irəli sürülüb. Məhz Prezident İlham Əliyevin iradəsi ilə Azərbaycanın əsas hissəsi ilə blokadada qalan Naxçıvan arasında kommunikasiya əlaqələrinin bərpa edilməsi istiqamətində mühüm addımlar atılıb. Bu dəhlizin yaradılması Azərbaycanın milli və strateji maraqları çərçivəsindədir. Eyni zamanda, dəhlizin fəaliyyətə başlaması ilə regionun tranzit imkanları daha da genişlənəcək. Zəngəzur dəhlizinin (TRIPP) yaradılmasında region dövlətləri ilə Azərbaycanın maraqları üst-üstə düşür. Xüsusilə, Orta Dəhlizin yeni seqmenti kimi Zəngəzur dəhlizi (TRIPP) həm rentabelliyinə, həm də effektivliyinə görə mühüm əhəmiyyət daşıyır. Ötən ilin avqustunda Vaşinqtonda reallaşan razılaşma isə bu layihənin qlobal siyasi təsdiqinə çevrildi. Yanvarın 5-də yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bildirib ki, biz əslində bu dəhlizi müharibədən - İkinci Qarabağ müharibəsindən bir neçə ay sonra icra etməyə başlamışıq: "Səhv etmirəmsə, 2021-ci ilin əvvəlində artıq o dəmir yolunun təməli də qoyuldu. Yəni sözün düzü, məndə şübhə yox idi ki, bu yol açılacaq. Əgər şübhə olsaydı, yəqin ki, biz bu qədər vəsait qoymazdıq. Hətta müsahibələrin birində də demişdim ki, istənilən yolla açılacaq. Bəzən belə ritorikaya da ehtiyac var, çünki bu, qarşı tərəfi, necə deyərlər, yumşaq mənada həvəsləndirir. Amma əlbəttə ki, bu məsələnin Amerikada Trampın iştirakı ilə həll olunması bu məsələni artıq tamamilə həll edilmiş məsələ kimi ortaya qoydu".

**Həm dəmir yolu, həm də avtomobil yolu tezliklə hazır olacaq**

Hazırda dəhlizin Azərbaycan seqmentində həm dəmir yolunun bərpası, həm də müasir avtomobil yolunun çəkilişi demək olar ki, yekunlaşmaq üzrədir - Zəngəzur dəhlizi (TRIPP) çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun 96 faizi tamamlanıb və 2026-cı ilin birinci yarısında istifadəyə veriləcək, Ağbənd körpüsündə işlər 95 faizi səviyyəsindədir. Horadiz-Ağbənd dəmir yolu xəttində layihələndirmə 85 faiz, tikinti 69 faiz icra olunub; Naxçıvan istiqamətində 188 km-lik dəmiryolu ilə körpülər, tunellər və viyaduktlar yenidən qurulacaq, illik buraxılış qabiliyyəti 15 milyon ton olacaq. Dəhlizin tam açılması 2028-ci ilə planlaşdırılır. Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu demək olar ki, tezliklə hazır olacaq: "Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində, - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir, - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq".

**Şərq-Qərb, Şərq-Cənub, Şimal-Cənub yolunun bir qolu...**

Zəngəzur dəhlizinin reallaşması birinci növbədə mühüm geocoğrafi situasiya yaradacaq. Yeni iqtisadi nizamda Şərq-Qərb tranzitini birləşdirəcək dəhliz digər region ölkələri üçün də mühüm əhəmiyyət kəsb edir. Çünki dəhlizin Şimal-Cənub xətti ilə perpendikulyar şəkildə kəsişməsi ikinci xətt üzərində olan dövlətlərin də maraq dairəsini buraya istiqamətləndirir. Başqa sözlə, Zəngəzur dəhlizi ətraf dövlətlərin də iqtisadi maraqlarına cavab verən amil kimi çıxış edir. Vurğulandığı kimi, Zəngəzur dəhlizi ümumən regionun inkişaf dinamikasını artırma imkanına malikdir. Dəhliz Şərq-Qərb marşrutu üzərində ən qısa yoldur. Təbii ki, istər yükdaşımalarında, istərsə də digər ticarət mübadilələrində ən qısa yolun seçilməsi iqtisadi baxımdan da böyük mənfəət vəd edir. Eyni zamanda, Zəngəzur dəhlizi təhlükəsiz marşurut sayılır. İnfrastruktur baxımından da Zəngəzur dəhilizi olduqca əlverişlidir. Zəngəzur dəhlizinin ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar.




Prezident müsahibəsində deyib ki, dəhliz həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq: "Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi - bu, Şimal-Cənub marşrutunun ikinci yolu olacaq. Bu, eyni zamanda, Orta Dəhlizin də ikinci yolu olacaq və təbii ki, yükaşırma qabiliyyəti artacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Qeyd etdiyim kimi, bunun əsas, necə deyərlər, istiqamətverici tərəfi də biz olacağıq. Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur".

**Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq...**

Zəngəzur dəhlizi (TRIPP) Orta Dəhliz üzərində yeni bir alternativ təşkil etməklə Şərq-Qərb kontentinin ən mühüm ticari xəttlərindən birinə çevrilmək potensialını daşıyır. Bu mənada, layihə bütün region ölkələrini özünə cəlb edir - məsələn, Türkiyə bu layihənin genişlənməsi istiqamətində ciddi planlar qurur. Belə ki, 224 kilometr uzunluğa malik olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu da Zəngəzur dəhlizinin bir hissəsidir və təkcə Türkiyəni Azərbaycanla birləşdirməyəcək, həm də qlobal nəqliyyat və ticarət yollarının əsas arteriyalarından birinə çevriləcək. Müsahibəsində dövlət başçısı qeyd edib ki, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfi qərar qəbul edib. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır: "Çünki Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb".

**Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər...**

Ermənistan bu dəhlizin açılması ilə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Qeyd edək ki, Zəngəzur dəhlizinin (TRIPP) açılması Ermənistan üçün həm siyasi, həm də iqtisadi dividendlər vəd edir. Belə ki, Zəngəzur dəhlizi Ermənistanın regional ticarət yollarına çıxışını bərpa etməyə və daha böyük iqtisadi məkana inteqrasiya etməyə imkan verəcək. Dəhliz vasitəsilə Ermənistan daha böyük xarici bazarlara çıxış imkanı qazanacaq. Paralel olaraq Türkiyə və Azərbaycanla əlaqələri normallaşacaq - bu da özlüyündə, Ermənistan iqtisadiyyatına geniş imkanlar yaradacaq. Yeni logistika və infrastruktur imkanları sayəsində nəqliyyat, ticarət, enerji və xidmət sektorlarında inkişaf sürətlənəcək. Eyni zamanda, Ermənistanda xarici sərmayə artacaq - açıq sərhədlər və sülh mühiti Ermənistan iqtisadiyyatına inamı artıracaq. İqtisadi dalan mühiti aradan qalxacaq - Ermənistan üçün həm istehsal xərcləri azalacaq, həm də ixrac imkanları genişlənəcək. Prezident İlham Əliyev müsahibəsində deyib ki, Ermənistan da təbii olaraq bundan ancaq fayda görəcək. Çünki Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq: "Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər".

*Pərviz SADAYOĞLU*

# Qalib Azərbaycan modeli: sülhə sadiqlik, güclü ordu strategiyası...

## Prezident İlham Əliyev: Sülh olması üçün güclü olmalısan





Ötən il 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbənin beşinci ildönümü tamam oldu. Azərbaycan bu müharibənin qalib tərəfi olsa da, düşməni qısa müddətdə tam kapitulyasiyaya məruz qoysa da, ordu quruculuğu dövlət siyasətinin ən mühüm prioritetlərindən biri kimi qalır. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində ölkə gündəliyinin ən mühüm məsələlərinə diqqət çəkib. Dövlət başçısısnın vurğu etdiyi kimi, silahlı qüvvələrimizin döyüş hazırlığının artırılması da strateji hədəflər sırasında yer alır ki, bu da təsadüfi deyil. Çox doğru olaraq ordunun möhkəmləndirilməsi indiki mərhələdə ölkəmizin yeni təhlükəsizlik arxitekturasının çox vacib elementi kimi dəyərləndirlir.

**Azərbaycan müharibəni udsa da, arxayınlaşmadı**

Ötən beş ildə Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi prosesində bir sıra mühüm hadisələr baş verib və 2025-ci il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə iki ölkənin xarici işlər nazirləri tərəfindən yekun sülh sazişi paraflanıb, həmçinin bir sıra digər razılaşmalar əldə olunub. Beləliklə, tənzimləmə prosesində yeni mərhələ başlayıb. İndi təxminən otuz il ərzində müharibə təhdidləri ilə üz-üzə qalan Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxındır.

Hər kəsə bəllidir ki, sülh prosesinin məntiqi sonluğa doğru irəliləməsi ilk növbədə Azərbaycanın qətiyyətli mövqeyi sayəsində mümkün olub. Məhz qalib Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatandan sonra 5 bənddən ibarət sülh paketi hazırlayaraq qarşı tərəfə ünvanladı və sonra da davamlı səylər göstərməklə prosesin irəliləməsinə nail oldu.

Eyni zamanda, respublikamız ötən beş ildə sülhə möhkəm sadiqlik nümayiş etdirməklə paralel şəkildə, ordusunun möhkəmləndirilməsi qayğısına da qalıb. Bunu açıq şəkildə bəyan edən Prezident İlham Əliyev "Bu beş il ərzində biz ordu quruculuğu ilə fəal şəkildə məşğul olmuşuq və necə deyərlər, qazandığımız uğurlardan arxayınlaşmamışıq. Mən şanlı Zəfərimizdən dərhal sonra demişəm ki, biz arxayınlaşmamalıyıq, həyatımızı bu Qələbəni bayram etməyə həsr etməməliyik", - deyə vurğulayıb.

Sülh şəraiti və güclü ordu quruculuğu ilk baxışda ziddiyyətli təəssüratlar yaradır. Ancaq regiondakı və dünyadakı reallıqları nəzərə aldıqda bunun nə qədər zəruri olduğu barədə konkrret təsəvvür yaranır. Prezident İlham Əliyev dünyanın hazırkı narahatlıq doğuran mənzərəsinə xüsusi diqqət çəkib. Vurğulandığı kimi, bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Dünyadakı hazırkı vəziyyət milli dövlətlər üçün çağırışlar yaradır.

Digər tərəfdən isə Ermənistanda İkinci Qarabağ müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrini qəbul etməyən qüvvələr var. Ermənistanda həm iqtidarda, həm də müxalifət daxilində olan həmin qüvvələr revanşizm əhval-ruhiyyəsindədirlər və çox aqressiv çağırışlar edirlər. Eyni zamanda, Ermənistan yenə də silahlanma yolu tutub. Sual olunur: Əgər bu ölkə sülh açıqlamalarında səmimidirsə, onda nə üçün Hindistandan, Fransadan ardıcıl olaraq silahlar alınır? Bu silahların Azərbaycana tuşlana biləcəyinə heç bir şübhə yoxdur. Unutmaq olmaz ki, məhz 2022-2023-cü illərdə görülən ölçülü və məqsədyönlü hərbi-siyasi tədbirlər Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanımasına və separatizmin tam aradan qaldırılmasına gətirib çıxarıb. Həmin illərdə məğlub Ermənistanın davranışlarına diqqət çəkən Prezident İlham Əliyev deyib: "Mina tədarükü, hərbi qulluqçuların rotasiyası, ordunun maliyyələşdirilməsi, silah tədarükü - bütün bunlar Qarabağın rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanınmasına baxmayaraq davam edirdi. Sonra həm Ermənistanla şərti sərhəddə, həm də Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə başqa tədbirlər görməyə məcbur olduq. Həm də bunu heç kimə və heç nəyə məhəl qoymayaraq etdik, çünki etməli olduğumuzu bilirdik. Əgər bunu etməsəydik, heç bir 8 avqust olmazdı. İndiyədək heç bir sülh də olmazdı və separatçılar bu günədək özlərini qorunmuş hiss edərək və Azərbaycan dövlətinə meydan oxuyaraq sərbəst hərəkət edərdilər".

Biz nə qədər sülh təşəbbüslərindən çıxış etsək də, keçmişin dərslərini də heç vaxt unutmamalıyıq. Qalib Azərbaycan öz niyyətini bəyan edib. Dövlətimizin başçısı ölkəmizin müharibə səhifəsini bağladığını və gələcəyə baxmaq əzmində olduğunu dəfələrlə ən müxtəlif tribunalardan diqqətə çatdırıb. Prezident İlham Əliyev bəhs olunan müsahibəsində indiki şəraitdə daha müasir ordu quruculuğunun yeni təhlükəsizlik arxitekturasının formalaşdırılması baxımından zəruri olduğunu əsaslanırıb. Qalib Azərbaycan Ordusunu hansısa bir qonşu dövlətə qarşı hücum məqsədilə gücləndirmir, bunu reallıqları nəzərə almaqla ölkənin müdafiəsini daha etibarlı şəkildə qurmaq məqsədilə edir. Müharibənin nə demək olduğunu Azərbaycan xalqı otuz il ərzində öz taleyində yaşayıb. Təxminən bir milyon soydaşımız Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində başladdığı işğalçılıq siyasətinə görə ev-eşiyindən məhrum qalıb, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu ədalətsiz müharibə nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb və 11 min kvadratkilometrdən çox ərazidə hər şey erməni vandalları tərfindən vəhşicəsinə dağıdılıb. Biz dünyanın gözü qarşısında humanitar fəakətlə üzləşmişdik, cəzasız qalan Ermənistan isə yeni ərazilər ələ keçirmək iddiaları səsləndirirdi. "..Müharibə bir ölkə və yaxud insanın başına gələcək ən pis şeydir. Mən bunu tam məsuliyyətlə deyirəm. Bu, ən pis sayılmalıdır. Ən yaxşı isə, sülhdür. Amma sülh olması üçün güclü olmalısan, beləliklə, bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik", - deyə Prezident İlham Əliyev bildirib.

**Bakıda möhtəşəm hərbi parad - şanlı Zəfərin rəmzi və yeni reallığın nümayişi**

Ötən il yaşanan digər bir mühüm hadisə isə Azərbaycanın şanlı Zəfərin beşinci ildönümü ilə əlaqədar noyabrın 8-də Bakının Azadlıq meydanında keçirilən möhtəşəm parad oldu. Parad təkcə Qələbənin rəmzi deyildi, həm də yeni bir reallığın nümayişi idi. Parad Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə baş tutdu. Azadlıq meydanından keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri, "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKİF" raket kompleksi, "BTR-82A" zirehli transportyorları, "PDM-3" Piyadaların Döyüş Maşınları, "T-72M1" və "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Tribuna önündən "S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORİT" və "TOR-2M" zenit-raket komplekslərinin keçidi oldu. Paradda silahlanmaya yeni qəbul edilmiş Yerli Müdafiə Sənayesinin məhsulu "VİKİNQ" hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş "Şilka" özüyeriyən zenit qurğusu və "HQ-9" uzaqmənzilli zenit-raket kompleksi nümayiş olundu. Həmçinin İnsansız Sistem Qoşunları tərəfindən Ordumuzun pilotsuz uçuş aparatları və digər insansız vasitələri təqdim edildi. Bir sözlə, hərbi paradda ordu birləşmələrinin nümunəvi keçidləri, nümayiş olunan hərbi texnika qalib Azərbaycanın ötən beş ildə keyfiyyətcə yeni bir ordu formalaşdırdığını əyani şəkildə təsdiqlədi. Parada ordumuzun silahlanmasına cəlb olunan yeni texnikanın məlum səbəblərə görə yalnız bir hissəsinin nümayiş etdirildiyini bildirən Prezident İlham Əliyev vurğulayıb: "İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir".

Postmüharibə dövründə Ordumuzun gücləndirilməsi müxtəlif istiqamətlərdə həyata keçirilir. Silahlı Qüvvələrimiz İkinci Qarabağ müharibəsində XXI əsrin müharibəsini apardı. Döyüşlərdə yeni yanaşmaların, innovasiyaların tətbiqi və əlbəttə ki, şəxsi heyətin yüksək vətənpərvərliyi böyük Qələbəni təmin etdi. Azərbaycan postmüharibə dövründə ordu quruculuğunu İkinci Qarabağ müharibəsinin təcrübəsini nəzərə almaqla həyata keçirir. Silahlı Qüvvələrin müasir tələblərə cavab verən silah-sursatla təminatı yenə də əsas vəzifələrdən biridir.

Azərbaycanın müdafiə potensialının gücləndirilməsində digər mühüm istiqamət struktur islahatlarını əhatə edir. Burada ilk növbədə NATO daxilində ikinci ən güclü orduya sahib olan Türkiyənin təcrübəsinə istinad edilir. Məsələn, postmüharibə dövründə bir sıra yeni silahlı birləşmələr, o cümlədən komando birlikləri yaradılıb və proses davam edir. Komando birlikləri istənilən hərbi vəzifəni icra etməyə qadirdir, çevikliyi ilə fərqlənir.

*Mübariz ABDULLAYEV*

# 1992-ci ilin 24 oktyabrı...

## Ermənilər Vaşinqtonda, AXC-Müsavat hakimiyyəti Naxçıvanda Azərbaycana qarşı “sui-qəsd” həyata keçirdi...

**1992-ci ilin oktyabrında ABŞ Konqresi SSRİ-nin dağılmasından sonra müstəqillik əldə etmiş dövlətlərə yardım üçün “Azadlığa Dəstək Aktı” (“Freedom Support Act”) adlı sənəd qəbul etdi. Azadlığa Dəstək Qanununun əsas müddəaları ikitərəfli iqtisadi yardım, biznesin inkişafı, demokratiya korpusu kimi məqamları özündə birləşdirirdi. Aktın Azərbaycanla bağlı olan 907-ci düzəlişində bildirilirdi ki, “Dəyişdirilmiş düzəlişlər əvvəllər nəzərdən keçirilməmiş daha çox Şərqi Avropa ölkəsini əhatə etmək üçün genişləndirir və Azərbaycana yardımı Ermənistana və Dağlıq Qarabağa qarşı təcavüzü dayandırana qədər məhdudlaşdırır”.**
**Bu isə o demək idi ki, təcavüzə, işğala məruz qalan Azərbaycana qarşı növbəti ədalətsizlik baş verirdi...**

### Aylarla davam etmiş müzakirə - Azərbaycan hakimiyyətinin sükutu...



Beləliklə, bu Akt 1992-ci ilin oktyabrında qəbul edilər-edilməz Azərbaycana yardımı məhdudlaşdırdı. Məsələnin mahiyyətinə keçməmişdən öncə, vurğulayaq ki, Azadlığa Dəstək Aktı üçün qanunvericilik prosesi qanun layihəsinin 3 iyun 1991-ci ildə Nümayəndələr Palatasında H.R. 2508 kimi təqdim edilməsi ilə başlamışdı. Qanun layihəsi 26 avqust 1992-ci ildə Nümayəndələr Palatasında müzakirəyə çıxarıldı və bu, Palatada məsələ ilə bağlı yeganə müzakirə və baxış oldu. 1992-ci ilin yayının sonlarında düzəlişlər Senatdan keçdi və 1 oktyabr 1992-ci ildə Azadlığa Dəstək Aktı Senatın müzakirəsinə çıxarıldı, qəbul edildi. Bir neçə gün sonra, 3 oktyabr 1992-ci ildə qanun layihəsi Nümayəndələr Palatasının müzakirəsinə çıxarıldı və qəbul edildi. Prezident Corc Buş 24 oktyabrda 102-511 saylı Dövlət Qanununu imzaladı.

Bütün bu incəlikləri sadalamaqda məqsədimiz var - bu Aktda Azərbaycana yardımın məhdudlaşdırılması o dövrdə müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz üçün böyük zərbə idi. Aktın müzakirəsi, ayrı-ayrı qanunvericilik prosedurlarından keçməsi isə aylarla davam etmişdi. Amma həmin dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü nəinki bu sənədin Azərbaycanla bağlı məhdudlaşdırılmasına müdaxilə etməmişdi, hətta bundan xəbərsiz idilər. Səbəb isə... səriştəsizlik, laqeydlik...



### AXC-Müsavat hakimiyyəti ermənilərin əlinə necə “işləyirdi”?

Gəlin, 1992-ci ilin oktyabrına, Bakıdan 10 min kilometrə qədər uzaq olan Vaşinqtonda onilliklər boyu ölkəmizin əleyhinə işləyəcək qərarın verildiyi dövrə bir də başqa prizmadan baxaq. Bir tərəfdə erməni lobbisinin açıq dəstəyi və təzyiqi ilə Azərbaycana qarşı kampaniya başladılıb, digər tərəfdə isə...

Digər tərəf, yəni, AXC-Müsavat cütlüyü o dövrdə elə dünya erməniliyinin əlinə işləyirdi desək, yanılmarıq. 1980-ci illərin sonundan başlayaraq Azərbaycanın başına gətirilən faciələrin xronologiyasına diqqət yetirsək bunu aydın görmək mümkündür. 1980-ci illərin sonunda Heydər Əliyevi Siyasi Büro üzvlüyündən uzaqlaşdırmaq üçün canfəşanlıq edən erməni lobbisi anlayırdı ki, Azərbaycana qarşı işğal siyasətinin uğurla nəticələnməsinə yalnız Ulu Öndər mane ola bilər. Başa düşürdülər ki, Heydər Əliyev siyasi proseslərin mərkəzində yer aldığı zaman ermənilər öz məqsədlərinə çata bilməyəcəklər - bunun üçün də keçmiş İttifaq daxilində bütün güclərini Heydər Əliyevə qarşı birləşdirmişdilər.

1992-ci ilin oktyabrında da eyni proses gedirdi, sadəcə bu dəfə proseslərin mərkəzində AXC-Müsavat hakimiyyəti yer alırdı. Onlar Heydər Əliyevin nüfuzuna qısqanclıqla yanaşır, hər vəchlə onu respublikada baş verən siyasi proseslərdən təcrid etməyə cəhd göstərirdilər. Bunun nəticəsi idi ki, Xalq Cəbhəsinin silahlı qüvvələri 1992-ci il oktyabrın 24-də Naxçıvanda çevriliş etməyə, Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd göstərdilər. O dövrü Heydər Əliyev belə xatırlayırdı: “1992-ci ilin oktyabr ayında, biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman bəziləri bunu da bizə çox gördülər, Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili İşlər Nazirliyini zəbt etdi, televiziyanı zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki, xalq bizimlə idi.

Mən o vaxt hər bir rabitədən məhrum olduğum üçün bir çox vətənpərvər insanlar avtomobillərlə dərhal şəhərin məhəllələrinə, ətraf kəndlərə, başqa kəndlərə gedərək, insanları Ali Məclisin qarşısına dəvət edirdilər. Bir neçə saat içərisində Naxçıvanın 20 minə qədər qeyrətli, namuslu kişiləri, qadınları, gəncləri, ağsaqqalları toplaşdılar və sinələrini irəliyə verib Naxçıvanın o vaxtkı Ali Məclisini və Heydər Əliyevi müdafiə etdilər”.

Bəli, 1992-ci ilin oktyabrında ermənilər Vaşinqtonda, AXC-Müsavat hakimiyyəti isə Naxçıvanda bu xalqın və dövlətin gələcəyinə qarşı sui-qəsd planlaşdırırdı.

### O vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki...



Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə 907-ci düzəlişlə bağlı fikirlərini bölüşüb. Sitat: “Əlbəttə ki, bu düzəliş bizə qarşı tətbiq olunanda bu, çox böyük ədalətsizlik, eyni zamanda, ovaxtkı Azərbaycan rəhbərliyinin buna laqeyd yanaşması idi. O vaxt Azərbaycan hakimiyyəti və onun diplomatiyası hansı səviyyədə idi, yəqin ki, bunu ancaq Mirşahin burada oturanlardan yaxşı bilir. Siz o vaxt çox gənc idiniz, bəlkə də uşaq idiniz. Əlbəttə ki, bu, biabırçı bir mənzərə idi. Azərbaycan diplomatiyasına rəhbərlik edən insanlar heç bir dildə danışa bilmirdilər, hətta Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər və heç bir təcrübəsi olmadan, yəni hansısa diplomatiyaya, siyasətə aid olmayan sahələrdən gətirilərək bu mühüm vəzifələrə təyin olundular. Ovaxtkı AXC-Müsavat hakimiyyəti, ümumiyyətlə, peşəkarlardan ibarət deyildi, əksinə, çox təsadüfi insanlar hakimiyyəti zəbt etmişdilər və faktiki olaraq Azərbaycanı məhvə doğru aparırdılar. Ondan cəmi bir il sonra xalqın tələbi ilə hakimiyyətdən biabırcasına getməyə məcbur oldular. Ona görə bax, bu iki amil önəmli rol oynamışdır. Əgər Azərbaycan o vaxt öz haqq sözünü Amerika rəhbərliyinə çatdıra bilsəydi, əgər mübarizə aparsaydı, onda bəlkə də Konqresdə erməni lobbisi tərəfindən təşkil edilmiş bu məsələyə Amerika administrasiyası başqa prizmadan da baxa bilərdi. Hər halda Konqres müstəqil orqan olsa da, xarici siyasətlə bağlı olan məsələləri bir çox hallarda Prezident Administrasiyası ilə müzakirə edir. Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var, belə bir qanun qəbul olunacaq və Azərbaycana qarşı bu ədalətsiz düzəliş tətbiq ediləcək”.

Bəli, dövlət başçısı müsahibəsində həmin dövrün mənzərəsini bütün ştrixləri ilə canlandırdı. Həqiqətən də o dövrdə yerində olmayan hakimiyyət, yerində olmayan “kadrlar” ölkədən kənarda Azərbaycana qarşı aparılan heç bir siyasi prosesə müdaxilə etməmişdi və ya edə bilməmişdi. Ya, həqiqətən onların “beynəlxalq aləm” anlayışından xəbərləri yox idi, ya da... başları qarışmışdı...

### Heydər Əliyevin Riçard Maylsla görüşü...

Dövlət başçısının yerli televiziyalara müsahibəsində bir məqam xüsusilə diqqəti cəlb edir: “Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var, belə bir qanun qəbul olunacaq və Azərbaycana qarşı bu ədalətsiz düzəliş tətbiq ediləcək”.

Proseslərin inkişafı göstərdi ki, həqiqətən də həmin hakimiyyətin nə yuxarı, nə də aşağı eşalonlarının nümayəndələri ölkəmizə qarşı edilən bu haqsızlıqdan xəbər tutmayıblar. Hətta sonradan xəbər tutmuşdularsa da, bunu xalqdan gizlədirdilər, millətin və dövlətin taleyi ilə oynayırdılar. Təsadüfi deyil ki, Azərbaycan ictimaiyyəti ilk dəfə “Azadlığa dəstək aktı” adlı sənəddən və 907-ci düzəlişdən ABŞ səfiri Riçard Maylsın 4 fevral 1993-cü il tarixində Naxçıvan Muxtar Respublikasına səfəri və muxtar respublikanın Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşündən sonra xəbər tutulmuşdu. O zaman Heydər Əliyev ABŞ Prezidenti Bill Klintona yazdığı məktubda blokada vəziyyətində olan Naxçıvana humanitar yardım göstərilməsini xahiş etmişdi. Səfir R.Mayls isə Naxçıvana gedərək Heydər Əliyevlə yardımın hansı marşrutla və necə çatdırılması barədə müzakirə aparmışdı. Çünki qeyd etdiyimiz kimi, 907-ci düzəliş yardımla əlaqədar ciddi məhdudiyyət yaradırdı. Buna baxmayaraq, ABŞ hökuməti muxtar respublikaya 1993-cü ilin martında 1 milyon dollar dəyərində ilk humanitar yardım göndərmişdi. Göstərilən yardımdan əlavə, Birləşmiş Ştatların bir sıra hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri Naxçıvana gələrək vəziyyətlə yerində tanış olmuşdular. Eyni zamanda, Heydər Əliyevin aktiv diplomatik təmasları nəticəsində digər dövlətlərin hökumətləri də öz nümayəndələrini vəziyyətlə tanış olmaq üçün Naxçıvana göndərmişdilər. Muxtar respublikaya yardım göstərən ilk beynəlxalq təsisatlar isə BMT-nin müvafiq qurumları idi.

### İllərlə davam edən haqsızlıq...

Bəli, sonrakı proses aydındır - 907-ci düzəlişin qəbul olunması nəticəsində yeni müstəqillik qazanmış və böyük çətinliklərlə üzləşən Azərbaycan Respublikası səkkiz il ərzində ABŞ yardımından məhrum oldu, “yardım” adı altında erməni lobbisinin oynamağa çalışdığı oyunların qarşısı alındı. 1996-cı ildə senator Con Porterin təklifi ilə hazırlanan “Porter əlavəsi” qanun layihəsində 1997-ci il üçün Azərbaycana yardım nəzərdə tutulsa da, bu əlavədə “Dağlıq Qarabağ” ayrıca, müstəqil tərəf kimi qeyd olunurdu - ermənilər bu yolla da öz məkrlərini həyata keçirməyə çalışırdılar. Heydər Əliyev o zaman ABŞ-ın Azərbaycandakı səfiri Riçard Kozlariçi çağıraraq ona bu məsələyə görə ciddi narahat olduğunu bildirmişdi və nəticədə Porter əlavəsinə dəyişiklik edilərək “Dağlıq Qarabağ”ı Azərbaycandan ayrı, müstəqil tərəf kimi göstərən ifadə dəyişdirildi. Heydər Əliyev 907-ci əlavənin ləğvinin zəruriliyini prezident Klinton və ABŞ Konqresinin üzvləri ilə görüşlərdə onların diqqətinə çatdırdı.

Nəhayət, 907-ci düzəlişin qüvvəsinin müvəqqəti də olsa tam dayandırılması üçün imkan 11 sentyabr 2001-ci il hadisələrindən sonra yarandı. ABŞ prezidenti Corc Buş 2002-ci ilin yanvarında 907-ci düzəlişin qüvvəsinin müvəqqəti dayandırılması haqqında qərar verdi. 2003-2004-cü illər üçün də eyni addımlar atıldı.

***P.İSMAYILOV***

# Ana dili: milli kimliyin və dövlətçiliyin əsası...

## Prezident İlham Əliyev: Bizim dilimiz böyük xalqın dilidir

Qloballaşma dövründə milli dövlətlər və ayrı-ayrı xalqlar üçün bir sıra mühüm çağırışlar yaranıb ki, onlardan biri də ana dilinin qorunması ilə bağlıdır. Dünyanı bir ovuc içinə sığışdıran internetin sürətlə inkişafının nəticəsi olaraq inteqrasiyanın intensivləşməsi milli dillər üçün böyük təhdidlər yaradır.

Belə bir şəraitdə hər bir dövlət, hər bir xalq öz dilini qorumaq qayğısına qalmalıdır. Təsadüfi deyildir ki. Prezident İlham Əliyev indiki şəraitdə ana dilinin qorunması məsələsini həm noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən iclasda, həm də yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bütün ciddiliyi ilə gündəmə gətirib.

**Azərbaycan dili çox zəngin, çox melodik və gözəl dildir**

Bu gün Azərbaycan dili müstəqil respublikamızın rəsmi dövlət dili statusuna malikdir. Dilimizin bugünkü inkişaf səviyyəsinə çatmasına və yüksək status qazanmasınadək isə uzun yol keçilib, bir sıra ciddi maneələr dəf edilib. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində xalqımızın tarixin müxtəlif dönəmlərində yaşadığı taleyə diqqət çəkib. Nə demək olar, qismətimizə ağır tale düşüb. Təzada baxın ki, biz həm əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, həm də əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Xalqımız qədim zamanlarda, eləcə də Rusiya və fars imperiyaları dövrlərində çətin sınaqlarla üzləşib. Təxminən 70 il davam edən sovet rejimi də müstəmləkəçiliyin başqa bir forması idi. Bu rejimin sərt ideoloji buxovları hələ də yaddaşlardan çıxmayıb. Təbii ki, müstəmləkə quruluşları xalqımızın milli-mənəvi dəyərlər sisteminə, o cümlədən də dilimizə təsirsiz ötüşməyib. Bununla belə, biz dilimizi yaşatmağa nail olmuşuq. Müstəqillik dövründə hər sahədə uğurlar qazandığımız kimi, zamanında dilimizə olan yad təsirləri də azaldırıq.

Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılıb. Tarixin sınaqlarından çıxan gözəl ənənələrimiz, milli-mənəvi dəyərlərimiz məhz bu dildə cilalanaraq qərinələrin sınaqlarından çıxmış, nəsillərdən-nəsillərə ötürülmüş və bu günümüzədək gəlib çatmışdır. Bu gün biz bir xalq kimi varıqsa, Vətənimizin sorağı dünya arenalarından gəlirsə, buna görə məhz Azərbaycan dilinə borcluyuq. “...Bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir”, - deyə Prezident İlham Əliyev Azərbaycan dilinə özünün yüksək münasibətini ifadə edib.






**Ana dilinin qorunması hər bir vətəndaşın və dövlətin vəzifəsidir**

Müasir dünya qlobalizmə əsaslır - bugünkü dünyada qapalı məkanda yaşamaq mümkünsüzdür. Təmaslar qaçılmazdır, internet resursları, sosial şəbəkələr həyatımıza möhkəm daxil olub. Belə şəraitdə istər-istəməz bizim dilimizə də kənar təsirlər yol tapır, dilimizə xarici kəlmələr daxil olur və onlardan istifadə edilir. Bunu məqbul saymaq mümkün deyil. Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir - dilimizi pozur. Bu proses bəlkə də hiss olunmayacaq dərəcədə yavaş gedir. Bununla belə, Prezident İlham Əliyevin bildirdiyi kimi, dilimizi damcı-damcı sarsıdır. Bu isə böyük fəsadlara yol aça bilər. “Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Fikirlərinə davam edən Prezident İlham Əliyev respublikamızda Azərbaycan dilinin qoruyucusunun Azərbaycan dövləti olduğuna da xüsusi vurğu edib. Həqiqətən də, müstəqillik dövründə Azərbaycan dilinin saflığının qorunması və statusunun möhkəmlənddirlməsi istiqamətində bir sıra mühüm addımlar atılıb. Bu sahədə dövlət siyasətinin əsası Azərbaycan dilinin sözün əsl mənasında təəssübkeşi olan ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev hələ keçmiş sovet dönəmində SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. O dövrdə belə bir fikir ifadə etmək böyük cəsarət və milli təəssübkeşlik nümunəsi idi. Heydər Əliyevin Azərbaycan dilinə dövlət dili statusunun verilməsində əvəzsiz rolu olub. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyev 73-cü maddənin aşağıdakı redaksiyada verilməsi təklifini irəli sürüb: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.”

Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, ötən əsrin 70-ci illərində Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Xalqını, Vətənini hədsiz məhəbbətlə sevən Heydər Əliyev ana dilimizə həssas yanaşmasını 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə müstəqil Azərbaycanın rəhbərliiyinə gəldikddən sonra da davam etdirdi.

Ölkəmizdə Heydər Əliyevin əsasını qoyduğu ana dilinə qayğı siyasəti son iyirimi ildən artıq müddətdə Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirlir. Prezident İlham Əliyev qloballaşma şəraitində dilimizin yad təsirlərdən qorunmasını, saflığının təmin edilməsini hədəfləyən bir sıra sənədlər imzalayıb. Dövlətimizin başçısının “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli, “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” 2012-ci il 29 may tarixli, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2013-cü il 9 aprel tarixli, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamları, “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli Fərmanı, həmçinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli Qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb.

**Xaricdə yaşayan soydaşlarımız da ana dilini mükəmməl bilməlidirlər**

Bəhs olunan müsahibəsində Prezident İlham Əliyev, həmçinin xaricdə yaşayan azərbaycanlıların ana dilini mükəmməl bilmələri məsələsinə diqqət çəkib. Təəssüf doğuran haldır ki, xaricdə yaşayan azərbaycanlıların bir çoxu ana dilini məişət səviyyəsində bilirlər və bu tendensiya nəsillər dəyişdikcə daha da dərinləşir.

Bunun bir sıra səbəbləri var. Məsələn, azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan dilində tədris verən məktəblər yoxdur. Bunu ədalətsizlik kimi dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb: “Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər”.

***Mübariz ABDULLAYEV***

# Qarabağ və Şərqi Zəngəzur: yenidənqurma və məskunlaşma nümunəsi

## Dövlət Proqramı çərçivəsində azad ərazilərdə nəzərdə tutulan layihələr tam icra olunub

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində azad ərazilərdə aparılan geniş miqyaslı quruculuq işlərinə diqqət çəkərək Böyük Qayıdış proqramının uğurla icra edildiyini xatırlatdı. Bəyan edildiyi kimi torpaqlarımız erməni işğalından azad edildikdən sonra dərhal nəhəng bərpa və quruculuq işlərinə start verildi və ötən 5 ildən artıq müddətdə Qarabağ və Şərqi-Zəngəzurda misligörünməmiş iri nəqliyyat, rabitə, kommunikasiya, sosial infrastrukturlar yaradıldı, şəhər, qəsəbə və kəndlər salınıb. Bu quruculuq tədbirləri sayəsində Böyük Qayıdışın ən ümdə hədəfi olan minlərlə insanın öz doğma yurduna geridönüşü təmin edilməkdədir.

**150-dən çox obyektin və infrastruktur layihəsinin açılışı edilib**

Beş il ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə 570-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı yüzdən çox layihənin təməlini qoyub, 150-dən artıq obyektin və infrastruktur layihəsinin açılışını edib. “İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı”, 8 şəhərin Baş planı, 3 şəhərin isə Müfəssəl planı təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planları işlənilmə mərhələsindədir. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

**“Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili” prioriteti üzrə**

247 min hektardan çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Zəruri müdafiə strukturlarının yaradılması, təhlükəsizlik məqsədilə yeni hərbi infrastrukturların qurulması təmin edilib, Laçın dövlət sərhədinin buraxılış məntəqəsində “Laçın” gömrük postu qurulub. Zəruri kommunal və sosial infrastrukturların qurulması istiqamətində də xeyli işlər görülüb. Ərazilərin elektrik enerjisi ilə təchizatı üçün 1000 km-dən çox yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, enerji sistemi yeni model əsasında qurulur və dairəvi enerji sistemi formalaşmaqdadır.

**Yol-nəqliyyat, enerji-rabitə, kommunal infrastrukturlar...**

Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Dövlət Proqramı çərçivəsində zəruri yol-nəqliyyat infrastrukturlarının inşası da sürətlə davam etdirilməkdədir. Həmin nəhəng infrastrukturlardan biri - Zəngəzur dəhlizinin ən mühüm qovşaqlarından olan Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 85 faizə yaxını yerinə yetirilib. Eləcə də Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd,Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi davam etdirilib.




Su təchizatı da azad ərazilərdə infrastruktur təminatında başlıca yer tutur. Bir neçə su anbarının yenidən qurulub, Zabuxçay su anbarı inşa edilib, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçay istifadəyə verilib. Ümumilikdə, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3714,8 km-lik 65 avtomobil yolu layihəsi icra olunur, 441,5 km tamamlanıb. Bərdə-Ağdam dəmir yolu (47,1 km) istifadəyə verilib, Horadiz-Ağbənd xətti 69 faiz, Ağdam-Xankəndi xətti 28,3 faiz icra olunub.

Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib.

Qarabağda və Şərqi Zəngəzurda 6 magistral qaz xətti çəkilib, 31 yaşayış məntəqəsi qazlaşdırılıb. Su və sosial infrastruktur da nəzərdə tutulan plan üzə qurulur, Zabuxçay su anbarı (26,8 mln $m^3$) tikilib, 51,6 km uzunluğu olan Zabuxçay magistral boru kəməri çəkilib. Şuşada 90 çarpayılıq Şuşa Müalicə Sağlamlıq Mərkəzi istifadəyə verilib, azad edilmiş ərazilərdə 21 məktəb, 14 məktəbəqədər müəssisə və bir sıra mədəniyyət obyektləri tikilib və bərpa olunub.

Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib. Bundan əlavə, Xankəndi şəhərində Qarabağ Universiteti fəaliyyətə başlayıb. Poçt və telekommunikasiya xidmətləri infrastrukturunun qurulması məqsədilə bir neçə yaşayış məntəqəsində, inzibati binada poçt xidmətləri yenidən təşkil edilib, 1 ədəd radio-televiziya yayımı stansiyasının fəaliyyəti təmin edilib. Mobil telekommunikasiya xidmətlərinin təşkili üzrə 11-dən çox yeni baza stansiyası quraşdırılıb.

**3 beynəlxalq hava limanı**

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edildikdən torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri sırasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. 2021-ci il oktyabrın 26-da istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı azad ərazilərdə inşa edilmiş ilk hava limanı kimi təkcə nəqliyyat qovşağı deyil, həm də Qarabağ regionunun əlçatanlıq, inteqrasiya və inkişaf simvoluna çevrilib. Hava limanı Zəfər Yolunun qapısı və Şuşa şəhərinə gedən əsas nəqliyyat qovşağlarının açarıdır. Torpaqlarımız işğaldan azad edildkdən cəmi bir il sonra istifadəyə verilən liman beynəlxalq status və IATA kodu (FZL) alıb. Füzuli aeroportu dünyada ən sürətlə tikilən hava limanlarından biri kimi tarixə düşüb.

2022-ci il oktyabrın 20-də açılışı edilən Şərqi-Zəngəzurun hava qapısı hesab olunan Zəngilan Beynəlxalq Hava Limanı azad ərazilədə ikinci nəhəng nəqliyyat infrastrukturu olmaqla, Şərqi-Zəngəzurun mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Liman Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Ötən il mayın 28-də istifadəyə verilən Laçın Beynəlxalq Hava Limanı isə Azərbaycanın dəniz səviyyəsindən ən hündür Zirvədə yerləşən möhtəşəm nəqliyyat abidəsi sayıla bilər. Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib.

Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunəyə çevrilməkdədir.

Ümumilikdə, 2020-2026-cı illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 30,5 milyard manat vəsait ayrılıb. Belə ki, 2020-2025-ci illərdə bərpa işlərinə 22,3 milyard manat, o cümlədən 18,5 milyard manatı investisiya xərcləri olmaqla vəsait ayrılıb. 2025-ci ildə 4,7 milyard manat, 2026-cı ildə isə 3,5 milyard manat nəzərdə tutulub.

**Azad ərazilərdə 70 mindən çox insan yaşayır**

İşğaldan azad edilmiş ərazilərin məskunlaşdırılması uğurla davam edir. İndiyədək işğaldan azad edilmiş ərazilərdə 31 yaşayış məntəqəsi bərpa olunub, 24 mindən çox keçmiş məcburi köçkün qayıdıb. Məskunlaşan ailələr, dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 70 mindən çox insan yaşayır və fəaliyyət göstərir. 2027-ci ilədək 91 yaşayış məntəqəsinə 96 minə yaxın şəxsin qayıdışı planlaşdırılır.

İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı işləri davam etdirilib, ötən dövrdə həmin sakinlərdən artıq 6,3 minə yaxın şəxsin məşğulluğu təmin olunub, 513 sakin üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə biznesləri sahələri yaradılıb, 258 sakin üçün isə peşə kursları təşkil edilib.

Ağdam və Cəbrayıl rayonundakı “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb.

*E.CƏFƏRLİ*

# Azərbaycan enerji təhlükəsizliyində rolunu artırır

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın etibarlı qaz təchizatçısı kimi həcm və coğrafiya baxımından qaz ixracını artırdığına diqqət çəkərək hazırda ölkəmizin 14 dövləti mütəmadi qazla təmin etdiyini diqqətə çatdırdı. Bu il daha iki Avropa ölkəsinin qaz nəql şəbəkəsinə daxil ediləcəyini vurğulayan dövlət başçısı bununla da Azərbaycan qazını alacaq ölkələrin sayının 16-ya çatacağını xatırlatdı. Bu isə TAP boru kəməri ilə qazın nəqlində ən böyük rəqəm deməkdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Hazırda Azərbaycan 25 milyard kubmetrdən çox qaz ixrac edir.

**Suriya enerji böhranından xilas edildi**

Ötən il Azərbaycanın qaz idxalçıları sırasına daxil ölkələrdən Suriya ilə əməkdaşlığın qurulması respublikamızın şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi nüfuzunu təsdiqləyir, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynadığını əks etdirir. Qeyd edək ki, SOCAR və Suriya hökuməti arasında imzalanan memorandum Suriyada böhran başlayandan bəri beynəlxalq səviyyəli ilk sənədlərdən biri kimi mühüm əhəmiyyətli saziş kimi xarici enerji koalisiyası tərəfindən də yüksək dəyərləndirilib. Anlaşmaya əsasən, Azərbaycan ildə 1 milyard kub.metr həcmində qazı Suriyanın ötürmə infrastrukturuna çatdırır.

Beləliklə, Azərbaycanın Yaxın Şərqdəki enerji siyasətində yeni bir mərhələnin başlanğıcı qoyulub və ölkəmiz enerji diplomatiyasında coğrafi və geosiyasi şaxələnməni genişləndirir. Çünki Azərbaycanın qazının Suriyaya nəqli təkcə iqtisadi deyil, həm də geosiyasi məsələdir. Suriyanın qaz nəqli şəbəkəsi “Ərəb qaz şəbəkəsi” adlandırılan sistemə qoşulub, bu şəbəkəyə Suriya, Livan, İordaniya və Misir daxildir. Bu isə o deməkdir ki, Azərbaycanın qazı bu ölkələrin hamısına ixrac edilə bilər və körfəz dövlətləri blokunda yeni enerji alyansı formalaşması qaçılmazdır. Şünki həmin ölkələr elektrik enerjisi istehsalı üçün ciddi şəkildə xammala ehtiyac duyurlar və bu baxımdan Azərbaycan yanacağı Suriya ilə yanaşı, digər ərəb dövlətlərinin də enerji infrastrukturunun dayanıqlılığına töhfə verə bilər.

**Azərbaycan Ukraynaya qaz nəqlini təmin edir**

Azərbaycanın enerji böhranından çıxardığı ölkələrdən biri də Ukraynadır. Ötən il Ukraynanın “Naftogaz” Şirkətlər Qrupu Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) qrupuna daxil olan “SOCAR Energy Ukraine” şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında imzalanmış müqaviləyə əsasən, ilk dəfə Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükünə başlanılıb. Rus qazının tranziti dayandığından Ukraynanın qazpaylayıcı sistemi işləksiz qaldığı halda tamamilə iflic ola bilərdi və



Azərbaycan Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirməklə Ukraynanın enerji infrastrukturunu sıradan çıxmaqdan xilas edib.

Azərbaycan bu nümunəvi addımı ilə bir haha sübut edir ki, regionda əsil enerji əməkdaşlığı və dostluğu halqası yaradan qüdrətli dövlətdir. Bunu mühüm hadisə kimi dəyərləndirən “Naftogaz”ın baş direktoru Sergey Koretski bildirib ki, qaz tədarükü həcm baxımından kiçik olsa da, strateji cəhətdən mühüm addımdır və uzunmüddətli əməkdaşlığa yol açır. Saziş, həmçinin tədarük mənbələrinin şaxələndirilməsi və Ukraynanın enerji təhlükəsizliyinin gücləndirilməsinin daha bir nümunəsidir.

**Avropanın ehtiyacları üçün əlavə ixrac imkanları**

Sözsüz ki, Azərbaycanın qaz ixracını artırması üçün resursların istehsalı da artmalıdır. Son illərdə yeni qaz yataqlarındakı blokların hərəkətə gətirilməsi və TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılırNövbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək.

2022-ci il iyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Leyenin ölkəmizə səfəri zamanı “Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”n imzalanması Azərbaycanın Avropa Birliyində əsas qaz təchizatçılarından biri kimi mövqeyini möhkəmləndirdi və yanacaq həcmlərinin artırılmasına dair niyyət ifadə olundu. Bu plana əsasən, 2024-2027-ci illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz ixracı edən TAP kəmərinin illik gücü 20 milyard kubmetrədək artırılmalıdır. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək.

**“Abşeron” yatağı güclü mənbəyə çevrilir**

Azərbaycanda qaz hasilatında əsas mənbə olan “Şahdəniz -2” layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kubmetr qaz istehsal edilir. “Şahdəniz”in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş “Abşeron” və “Ümid” yataqları, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli “Şəfəq-Asiman”, “Babək”, “Zəfər-Məşəl” və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan “Abşeron” yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2025-ci ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, “Abşeron”un Aİ-yə ən azı 20-25 qaz nəqlində perspektiv mənbə olacağını təsdiqləyir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan “Fitch Ratings” bir müddət əvvək açıqladığı hesabatda “Abşeron” qaz-kondensat yatağının “Şahdəniz-2”dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib. Ümumilikdə, “Abşeron” və digər yataqlarda da daxil olmaqla, Azərbaycanın təsdiqlənən qaz ehtiyatları 2,6 trilyon kubmetr güman olunur.

**Mərkəzi Asiya ölkələri TAP-a qoşula bilər**

Xəzər regionuna zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasnı və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxaql sazişlər olmalıdır. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. Ötən ay Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP- vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzədə tutulur.

*ELBRUS CƏFƏRLİ*

# Azad ərazilər turizm mərkəzinə çevrilir

## Bölgədə inkişaf edən turizm sənayesi əhalinin məşğulluğuna və gəlir əldə etməsinə töhfələr verir

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ölkəmizin turizm potensialına toxunaraq ölkə iqtisadiyyatının inkişafında bu sektorun xüsusi əhəmiyyətinə diqqət çəkdi. Vurğulandığı kimi Azərbaycan turizminin inkişafı üçün əsas amillər təhlükəsizlik, sabitlik, əlverişli coğrafi mövqe, zəngin mədəniyyət, təbiət və iqlim müxtəlifliyidir ki, bunların hər biri ölkəmizdə mövcuddur. Bu imkanlar turistləri həm paytaxta, həm də azad edilmiş ərazilərə cəlb etməyə imkan verir.

Qeyd edək ki, 2025-ci ildə Azərbaycanda turizm sektorunda 8,9 faiz artım qeydə alınıb, ölkəmizə gələn əcnəbilərin sayı 2,3 milyon, gecələmələr 7,287 milyon olub. Bu sahəyə 349 milyon manat investisiya yatırılıb, xidmət sektorunda 6,4 min yeni iş yeri yaradılıb.

İşğaldan azad olunmuş ərazilərimiz öz füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri, geniş turizm imkanları ilə bütün qonaqların diqqətini cəlb edir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu bölgənin geniş dağ silsiləsi ilə əhatə olunması, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının zəngin təbiəti, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının ekologiyası dağ və okturizm üçün ən münbit zonadır. Eləcə də Şuşa, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri zəngin tarixi-memarlıq abidələri ilə Azərbaycanın və dünyanın mədəniyyət salnaməsidir. Bu ərazilərdə tarixi-mədəni turizmin inkişafı üçün hədsiz dərəcədə potensiallar mövcuddur.

Zəngilan rayonunun Ağalı kəndində 3 ildir ki, fəaliyyətdə olan "Ağalı" hoteli azad edilmiş ərazilərdə ilk turizm obyektlərindən biri olmaqla, bölgənin ekoturizm potensialının səfərbər edilməsinə zəmin yaradıb. Zəngilanda Beynəlxalq Hava Limanının istifadəyə verilməsi bu rayona turist axını üçün əlverişli mühit yaradıb, eləcə də Zəngəzur dəhlizinin ən mühüm landşaftlarından biri olan Horadiz-Ağbənd dəmir yolu xəttinin və magistral avtomobil yollarının inşası Zəngilanda turizmin dirçəlişini daha da böyüdəcək.

### Şuşa turizm mədəniyyətinin mərkəzidir

Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi və cəmi 2-3 il ərzində "Qarabağ" və "Xarıbülbül", "Yasəmən", Şuşa Hotel və Konfrans Mərkəzinin, digər xidmət infrastrukturlarının istifadəyə verilməsi bu şəhərin turizmin zəngin mərkəzinə çevrildiyini göstərir. Eləcə də Qarabağın füsunkar və iqliminə görə, ən dilbər guşələrindən biri olan Xankəndidə də turizm sektoru canlanmaqdadır. Burada "Qarabağ", "Palace", "Bulud" hotellərinin turistlərin ixtiyarına verilməsi bu şəhərin əvvəlki turizm simasının özünə qayıtmasında müjdə olub. Bunun ardınca Xandəndidə mühüm sosial, ictimai iaşə obyektləri, müxtəlif restoran, xidmət və ticarət mərkəzlərinin istifadəyə verilməsi, bölgənin şəhər sənayesinin inkişafı ilə bağlı layihələrin icrası turizm sektorunun inkişafına öz töhfəsini verib. "Bulud" hoteli isə turizm arxitekturasında özünəməxsus yerini tutmaqdadır. Ağdam-Xankəndi dəmir yolunun yenidən qurulması isə bu şəhərin və ətraf bölgələrin vahid turizm zəncirində birləşməsində mühüm rol oynayacaq.

Ağdamda "Aghdam City Hotel"in istifadəyə verilməsi ilə bu rayonda da turizmin ilk addımları atılıb. "Hilton Garden İnn" hotelli isə regionun turizm sektorunun inkişafı üçün yeni imkanlar açır. Qarabağın geniş turizm potensialında özünəməxsus yeri ilə seçilən Ağdamda aparılan sürətli bərpa-quruculuq işləri, yol-nəqliyyat, sosial infrastrukturların yaradılması bu ərazilərin turizm sənayesini də hazır vəziyyətə gətirir. Digər turizm və xidmət obyektləri də bu rayonun əvvəlki turizm şöhrətini tam bərpa edəcək.

### Kəlbəcər turizmin cənnətinə çevrilə bilər

Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. Hazırda Tuğ, Hadrut, Daşaltıda turizm infrastrukturunun yaradılması üçün inkişaf konsepsiyaları üzrə layihələndirmə işlərinin aparılması da təsadüfi deyil. Eləcə də "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması da bu strateji məqsədə xidmət edir. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, "yaşıl turizm" təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verə bilər. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür.

Qarabağda 3 hava limanının tikilməsi də təsadüfi deyildir. Füzuli, Zəngilan və Laçın Hava Limanları həm də turizm tranzitinin əsas açarı kimi nəzərə alınıb. Məhz bu zəngin imkanları nəzərə alan hökumət bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər, turizm infrastrukturları və xidmət şəbəkələrinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir.





### Qarabağ və Şərqi-Zəngəzura 1 milyon turistin səyahəti gözlənilir

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"da nəzərdə tutulan əsas prioritetlərdən biri bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı zəruri təminatların yaradılmasıdır. Bu məqsədlə turizm sənayesinə müxtəlif iqtisadi stimullar verilib, turizm sektoru vergilərdən azad olunub. Bu ərazilərə investisiya qoyuluşunu artırmaq üçün müxtəlif dövlət dəstəyi tədbirləri müəyyən olunub. Tədbirlər Planına uyğun olaraq bölgədə davamlı işlər görülür, turizm marşrutları hazırlanır. Eyni zamanda, yerli və xarici turistlərin artıq bu bölgəyə səfərləri üçün turpaketlər təşkil olunmaqdadır.

Beləliklə, Qarabağ və Şərqi-Zəngəzurda hər istifayə verilən turizm obyektləri yeni turist axınları üçün əlverişli qapı deməkdir. Proqnozlara görə, yaxın illərdə daxili və xarici turistlərlə birgə bu bölgəyə 1 milyon turistin səyahət edəcəyi gözlənilir.

### Beynəlxalq idman tədbirləri turizmin inkişafını təşviq edir

Beynəlxalq idman tədbirləri də ("Formula 1", Xizəksürmə üzrə dünya çempionatı və s) turizm və xidmət infrastrukturunu inkişaf və təşviq edir, ölkəmizin qlobal turizm cəmiyyətinə inteqrasiyasında mühüm rol oynayır. Məsələn, ənənəvi olaraq keçirilən "Formula 1" yarışı ölkəmizin turizm imkanlarının dünyaya təqdimatında xüsusi rol oynamaqdadır. Birinci "Formula 1" yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artıb. Hazırda xizək turuzmi üçün yaradılan yeni infrastrukturlar dağ-xizək turuzminin inkişafında yeni mərhələ açmaqdadır. Yeri gəlmişkən, xizək turizminin əsas ünvanlarından olan Şahdağ Turizm Kompleksi 37 xizək yamacı və 45 km uzunluğuyla fəaliyyət göstərir, 2025-ci ildə 300 mindən çox ziyarətçi qəbul edib. Tufandağ Qış-Yay Turizm İstirahət Kompleksi 12 km-dən çox xizək sahəsi və 4 kanat xətti ilə işləyir. Həmçinin, Kəlbəcər Dağ Turizm Mərkəzi 2 fazalı layihə ilə 3 kanat yolu və 18 yamac təqdim edəcək.

Beləliklə, ölkəmizdə turizm sənayesinin inkişafı regionda böyük bir turizm bumunu formalaşdıracaq, bu isə rayonlarda məşğulluğun təmin olunmasında və əhalinin gəlirinin artmasına səbəb olacaq.

***E.CƏFƏRLİ***

# Dəm qazı təhlükəsi...

## Rəngsiz, iysiz, səssiz...

***Yeganə BAYRAMOVA***

Havalar soyuduqdan sonra evlərdə qaz sobalarından istifadə halları çoxalır. Ancaq təəssüf ki, istilik axtarışı bəzən faciə ilə nəticələnir. Dəm qazı insanı xəbərsiz yaxalayır: yuxuda, istirahətdə, gündəlik həyatın ən adi anında...

Dəm qazı rəngsizdir, qoxusuzdur, hiss olunmur. İnsan onu nə görür, nə də duya bilir. Orqanizmə daxil olduqda isə qanın oksigen daşıma qabiliyyətini bloklayır. Nəticədə beyin və ürək oksigensiz qalır. Baş ağrısı, ürəkbulanma, halsızlıq ilk əlamətlərdir. Ardınca huşun itirilməsi, koma və ölüm gəlir. Bəzən isə heç bir əlamətə belə vaxt qalmır.

Ən ağrılı məqam odur ki, bu ölümlərin böyük əksəriyyətinin qarşısı alına bilər - vaxtında təmizlənməyən baca, sertifikatsız qızdırıcı, havalandırması olmayan otaq, gecə yatarkən açıq buraxılan qaz cihazı, bütün bunlar risk zəncirinin həlqələridir. Təhlükə isə bu həlqələr birləşəndə yaranır.

**Evin bacaları ildə ən azı 2 dəfə təmizlənməlidir**

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, dəm qazı iysiz, dadsız, rəngsiz, havadan yüngül olan qazdır. Ekspertin sözlərinə görə, insanlar dəm qazının nədən yarandığını bilməlidirlər: "Yanma prosesi düzgün getmədikdə dəm qazı əmələ gəlir. Əgər yanma prosesi düzgün gedərsə, onda dəm qazı əmələ gəlmir".

E.Nurəliyev yanma prosesinin nə zaman düzgün getmədiyi haqda danışarkən bildirib ki, qaz cihazlarına kənar müdaxilələr olarsa, qaz cihazlarının avadanlıqları standartlara cavab verməzsə, evə metal borular əvəzinə kapron və digər materiallardan olan borularla qaz çəkilərsə, qaz xəttində hər hansı bir nasazlıq, dəlik və sızma olarsa, onda dəm qazı əmələ gəlir: "Həmçinin qaz sobalarına kənar müdaxilələrin edilməsi də çox təhlükəlidir. İnsanlar bir otaqdan digər otağa kustar üsulla hazırlanmış qaz xətti çəkirlər və ya qızdırıcı sobalara kənar müdaxilələr edirlər. Bu da yanma prosesinin düzgün getməməsinə gətirib çıxarır. Bundan başqa, evin bacaları ildə ən azı iki dəfə təmizlənməlidir. Əgər evin bacaları təmizlənməzsə, təbii ki, orada hava ventilyasiyası, sovrulması olmur və yanma prosesini də çətinləşdirir. Daha dəqiq desək, kömürün və odunun yanmasından belə dəm qazı əmələ gəlir. Evin havası gün ərzində iki dəfə-səhər və axşam dəyişməlidir. Evdə qazı yandırarkən əmin olmaq lazımdır ki, otaqda qaz iyi var və ya yox. Əgər evdə qaz iyi yoxdursa, onda kibriti çəkmək lazımdır. Hətta çöldən evə daxil olan zaman da otaqda qaz qoxusunun olub-olmadığını yoxlamaq, daha sonra işıqları yandırmaq vacibdir".



**7 dəqiqəyə ölüm...**

Ekspert qeyd edib ki, dəm qazları, əsasən, hamam otağında və mətbəxdə əmələ gəlir: "Demək olar ki, dəm qazının 95 faizi hamam otaqlarında əmələ gəlir. Qışda insanların qaza olan tələbatları daha çoxdur. Həmin vaxtda insanlar otaqlarda qapı-pəncərələri bağlı saxlayırlar. Yayda isə qapı-pəncərələr çox vaxt açıq olur və havalandırma olduğuna görə dəm qazı da, demək olar ki, olmur. Bir otaqdakı hava kütləsinin 0,1 faizi dəm qazı olarsa, bu, insan ölümünə gətirib çıxarır. Dəm qazı olan otaqda insanın həyatını itirməsi üçün 7 dəqiqə kifayət edir. Hamam otaqlarında olan zaman nəfəsliklər mütləq açıq olmalıdır. İnsanlar yayda həmin nəfəslikləri açıq, qışda isə bağlı saxlayırlar. Hamam otaqlarında ventilyasiya olmalıdır, qapıların aşağı hissəsində isə mütləq dəliklər olmalıdır. Hamam otaqlarına kustar üsulla hazırlanan qızdırıcılar qoyulmamalıdır. Bu, dəm qazının yaranmasına səbəb olur. Əgər insanlar bu standartlara əməl etsələr, dəm qazı riski azalar".

**Müəyyən standartlar nəzərə alınmalıdır.**

Ekspertin sözlərinə görə, hamam otaqlarının sahəsi minimum 7 kv metr, hündürlüyü isə 2.5 metr olmalıdır: "Mütləq şəkildə nəfəslik, ventilyasiya sistemi və qapıların aşağısında 3-5 dəlik olmalıdır. Ümumiyyətlə, hamam otağının içində qaz təchizatı olmalı deyil, indi müasir avadanlıqlar var.

Onu da qeyd edim ki, satış yerlərində dəm qazını aşkar edən detektorlar var və qiyməti də baha deyil. Funksiyası ondan ibarətdir ki, dəm qazı aşkar olunduqda cihaz elektromaqnit şüa ötürür və qazın təchizatı dayanır. Xüsusi siqnal vasitəsi ilə artıq vətəndaş bilir ki, evdə dəm qazı var".

**İlk yardım necə olmalıdır?**

Həkim Şahvələd Məmmədovun sözlərinə görə, dəm qazından boğulma zamanı insanın mərkəzi sinir sistemi iflic ola bilər: "Dəm qazı zəhərlənmələri çox vaxt 1-ci, 2-ci, güclü, orta, zəif dərəcədə olur. İlk növbədə dəm qazından boğulmuş insan bunu hiss etmir. Yüngül formada baş gicəllənməsi olur, ürəkbulanma, yavaş-yavaş halsızlıq yaranır. İlkin simptomlar yaranan kimi insan bunu hiss etməyi üçün bu otaqda qalmaqda davam edir. Sonra keçir ikinci situasiyaya. Burada artıq dəm qazının mərkəzi sinir sisteminə təsiri başlayır və insan artıq huşunu itirir. Belə ki, təzyiq aşağı düşür, nəbz sürətlənir və hətta dezreflekslərini də itir. Bu, artıq ağır formalı dəm qazı ilə zəhərlənmə hesab olunur. Zəhərlənmə zamanı ilk növbədə pəncərəni açmaq, xəstəni təmiz havaya çıxarmaq, xəstə huşunu itiribsə, təcili sürətdə təzyiqini ölçmək və təcili tibbi yardım çağıraraq xəstəxanaya aparmaq lazımdır. Əgər yüngül formalıdırsa, onda xəstənin üzünə və bədəninin açıq nahiyələrinə soyuq su vurmaq lazımdır. Xəstənin udqunma aktı aktivdirsə, iflic olmayıbsa, ona maye vermək lazımdır. Təzyiqi aşağı olduqda ev şəraitində təzyiq qaldırıcı vasitələr verilir, başının altına yastıq qoyulur ki, vəziyyəti stabilləşsin. Huşsuz vəziyyətdə olduğu halda xəstə artıq xəstəxanaya aparılmalıdır".

**Fəsadlar qalıcı ola bilər...**

Ş.Məmmədov vurğulayıb ki, dəm qazı zəhərlənməsi orqanizmdə müəyyən vaxt ərzində qalıcı fəsadlar da törədir: "Dəm qazından zəhərlənmə həm ağciyərə, həm də qaraciyərə ciddi toksiki təsir göstərir. Boğulmanın ağır forması zamanı xəstə vəziyyətdən çıxana kimi onun orqanizmində qalıcı fəsadlar yaranır. Daxili orqanların ultrasəs müayinəsi zamanı qaraciyərdə və ağciyərdə olan dəyişikliklər üzə çıxır. Bu zaman ağciyərdə təngnəfəslik qala bilər".

**Zəhərlənmə sonrası düzgün qidalanma**

Həkim dəm qazı zəhərlənməsindən sonra daha çox hansı qidalara üstünlük verilməsindən də danışıb: "Zəhərlənmədən sonra ilk növbədə bol maye qəbul edilməlidir. Qidalanma da bədənin bərpasını sürətləndirməyə, oksigen çatışmazlığının təsirlərini azaltmağa kömək edir. Xüsusilə, dəmir və qan yaradan qidalar qəbul edilməlidir. Məsələn, az miqdarda qırmızı ət, qaraciyər, yumurta sarısı, noxud, mərcimək, ispanaq, çuğun kimi qidaların yeyilməsi məsləhət görülür.

Eyni zamanda, C vitamini ilə və zülalla zəngin qidaların da qəbul edilməsi lazımdır. C vitamini ilə zəngin qidalar antioksidant təsir göstərir, zülalla zəngin qidalar isə bərpa prosesini dəstəkləyir".

Unutmayaq ki, dəm qazı ilə mübarizə səssiz aparılmalıdır. Bu təhlükə haqqında danışmaq, yazmaq, xəbərdarlıqlar etmək lazımdır. Çünki rəngsiz, qoxusuz düşmən yalnız tanındıqda məğlub olur. Susduqca isə can almağa davam edir...

# ABŞ-ın milli təhlükəsizlik prioriteti

## Qrenlandiya planı NATO-da gərginlik yaradır

ABŞ milli təhlükəsizlik səbəbləri ilə Qrenlandiya üzərində nəzarəti əldə etməklə bağlı planını həyata keçirməkdə israrlıdır. Əhalisi cəmi 57 min nəfər olan, dünyanın ən böyük adası sayılan Qrenlandiya NATO-nun müstəqil üzvü deyil, lakin Danimarkanın Qərb alyansındakı üzvlüyü çərçivəsində müdafiə olunur. Avropa ilə Şimali Amerika arasında strateji mövqedə yerləşən ada onilliklərdir ABŞ-ın raketdən müdafiə sistemi üçün mühüm əhəmiyyət kəsb edir. Onun zəngin mineral ehtiyatları da Vaşinqtonun Çindən asılılığı azaltmaq məqsədləri ilə üst-üstə düşür. Donald Tramp dəfələrlə Rusiya və Çinə məxsus gəmilərin Qrenlandiya ətrafındakı sularda patrul apardığını bildirib, lakin Danimarka bu iddiaları təkzib edib. Kopenhagen Rusiya və Çinin Qrenlandiyanı hədəfə almaq cəhdləri ilə bağlı iddiaları rədd edir.



Lakin Danimarkanın Baş naziri Mette Frederiksen öz növbəsində bununla bağlı Vaşinqtona xəbərdarlıq edib. Fransa, Almaniya, İtaliya, Polşa, İspaniya, Böyük Britaniya kimi aparıcı Avropa dövlətləri isə Danimarkaya dəstək verir - onlar birgə bəyanat yayaraq, bu məsələdə yalnız Danimarka və Qrenlandiyanın qərar verməli olduqlarını qeyd ediblər. Liderlər vurğulayıblar ki, Arktikanın təhlükəsizliyi Avropa üçün əsas prioritet olaraq qalır, həmçinin beynəlxalq və Trans-Atlantik təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edir.



### Vaşinqtonun rəsmi mövqeyi ...

Qeyd edək ki, Donald Tramp hələ yeni prezident seçildiyi dövrdə Qrenlandiyanın ABŞ-a birləşməli olduğunu bildirmişdi. O, adanın ABŞ-ın hərbi strategiyası üçün mühüm əhəmiyyət daşıdığını deyir və Danimarkanı müdafiə üçün yetərli tədbirlər görməməkdə günahlandırır. ABŞ lideri ötən ilin may ayında "NBC News" telekanalına müsahibəsində Qrenlandiya məsələsinin həlli üçün güc tətbiqini istisna etməmişdi. Cari il yanvarın 6-da isə Ağ Ev yazılı açıqlamasında Qrenlandiya ilə bağlı planları şərh edərkən hərbi güc tətbiqinin həmişə Ali Baş Komandanın ixtiyarında olduğunu vurğulayıb. Belə ki, Ağ Evin mətbuat katibi Kerolayn Livittin açıqlamasına görə, Prezident Donald Tramp və komandası Danimarkanın muxtar ərazisi olan Qrenlandiyanı əldə etmək üçün ordudan istifadə də daxil olmaqla, müxtəlif variantları araşdırır: "Prezident və onun komandası bu mühüm xarici siyasət hədəfinə nail olmaq üçün bir sıra variantları müzakirə edir və əlbəttə ki, ABŞ ordusundan istifadə də Ali Baş Komandan üçün bir variantdır. Prezident Tramp açıq şəkildə bildirib ki, Qrenlandiyanın əldə edilməsi Birləşmiş Ştatların milli təhlükəsizlik prioritetidir və Arktika bölgəsindəki düşmənlərimizin qarşısını almaq üçün həyati əhəmiyyət kəsb edir".

Ağ Evin nümayəndəsi Stiven Miller isə CNN telekanalına müsahibəsində bildirib ki, heç kim Qrenlandiyaya görə ABŞ-la müharibə etməyəcək: "Vaşinqtonun rəsmi mövqeyi ondan ibarətdir ki, Qrenlandiya ABŞ-ın bir hissəsi olmalıdır".

### Müttəfiqlərin fəaliyyət planı...

Yeri gəlmişkən, NATO üzrə Avropadakı müttəfiqlər ABŞ-ın Qrenlandiya ilə bağlı planına qarşı fəaliyyət planı üzərində sıx əməkdaşlıq edirlər. Bu barədə "Reuters"agentliyi xəbər verir ki, ABŞ-ın Qrenlandiya üzərində nəzarəti əldə etməsi NATO alyansında ciddi sarsıntıya səbəb ola və Tramp ilə Avropa liderləri arasında mövcud olan fikir ayrılıqlarını daha da dərinləşdirə bilər.

Fransanın xarici işlər naziri Jan-Noel Barronun sözlərinə görə, ABŞ Dövlət katibi Marko Rubio ilə telefon danışığı zamanı Qrenlandiyaya hərbi müdaxilə ehtimalını istisna edib. Bu həftə aparıcı Avropa dövlətləri və Kanada Qrenlandiyaya dəstək ifadə edərək bildiriblər ki, Arktika adası onun xalqına məxsusdur. Danimarkanın xarici işlər naziri Lars Løkke Rasmussen və onun Qrenlandiyadan olan həmkarı Vivian Motsfeldt isə vəziyyəti müzakirə etmək üçün Marko Rubio ilə təcili görüş keçirilməsi üçün müraciət ediblər.



### Aİ: Danimarka və Qrenlandiyaya dair qərarlar onlarsız qəbul edilə bilməz

Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Antoniu Koşta isə bəyan edib ki, Avropa İttifaqı Qrenlandiyada beynəlxalq hüququn pozulmasını qəbul edə bilməz: "Qrenlandiya onun xalqına məxsusdur. Danimarka və Qrenlandiyaya dair heç bir qərar onlarsız qəbul edilə bilməz. Onlar Avropa İttifaqının tam dəstəyi və həmrəyliyinə malikdirlər". Onun sözlərinə görə, Avropa beynəlxalq hüququn və çoxtərəfliliyin möhkəm və sarsılmaz müdafiəçisi olaraq qalacaq.

Avropa Komissiyasının rəhbəri Ursula Fon der Leyen isə deyib ki, Qrenlandiya məsələsində beynəlxalq hüquq prinsiplərinə riayət etmək vacibdir: "Avropa İttifaqı münaqişədən doğub. Bizim blok ideal deyil, amma o, əməkdaşlığın qarşıdurmadan güclü, qanunun isə gücdən üstün olduğunu vəd edir. Bu prinsiplər yalnız Avropa İttifaqımıza deyil, eyni dərəcədə Qrenlandiyaya da aiddir". O, Qrenlandiyanın muxtariyyətə malik olsa da, Danimarkanın və Avropa İttifaqının bir hissəsi olduğunu xatırladaraq ABŞ-ın hazırkı administrasiyasının ada ilə bağlı niyyətlərinin hüquqa zidd olduğunu qeyd edib.

### ABŞ adada hərbi resurslarını genişləndirmək istəyir

Ada hazırda xüsusi balıqçılıq şərtlərini qoruyaraq Aİ daxilində xarici ölkə və ərazi statusuna malikdir. Adada balıqçılıq ixracın 90 faizindən çoxunu təşkil edir və Danimarka subsidiyaları dövlət büdcəsinin təxminən yarısına bərabərdir. Bu vəsaitlər xəstəxana və məktəbləri maliyyələşdirir, infrastrukturu saxlayır. Danimarka və Qrenlandiya arasındakı münasibətlər tarixin bəzi məqamlarında gərginləşib. 1950-ci illərdə Danimarka hakimiyyəti inuitləri zorla daha böyük şəhərlərə köçürdü, habelə əhalinin təxminən 90 faizini təşkil edən yerli sakinlərin adət-ənənələrini və dillərini assimilyasiya etdi. 2022-ci ildə Danimarka 1950-ci illərdə Qrenlandiya uşaqlarının Danimarkaya göndərilməsi ilə bağlı təcrübəyə görə üzr istəyib.

1951-ci ildə Danimarka və Qrenlandiyaya bildiriş göndərildikdən sonra bazalar qurmaq azadlığı verən müqaviləyə əsasən, ABŞ qoşunları Qrenlandiyanın şimal-qərbindəki Pitufik Hava Bazasında daimi təmsil olunur. Danimarka isə ABŞ-ın adadakı mövcudluğuna dözümlü yanaşıb - çünki Kopenhagen Qrenlandiyanı müdafiə etmək qabiliyyətinə malik deyil və NATO vasitəsilə ABŞ-ın təhlükəsizlik zəmanətlərindən istifadə edir. Prezident Donald Trampın Qrenlandiyanın əldə edilməsinin milli təhlükəsizlik prioriteti hesab etməsi isə təsadüfi deyil - Avropadan Şimali Amerikaya ən qısa yol Qrenlandiyadan keçir və bu da onu ABŞ-ın ballistik raket erkən xəbərdarlıq sistemi üçün vacib edir. ABŞ burada hərbi resurslarını genişləndirmək niyyətindədir.

*N.BAYRAMLI*

# Karakas icazəli qərarlar verir

## Donald Tramp Venesuelaya səfər edə bilər



*N.BAYRAMLI*

Hazırda ABŞ Venesuelada vəziyyətə tam nəzarət edir. Vaşinqton Venesuelanın müvəqqəti hökumətinə təzyiq göstərərək Rusiya, Çin, İran və Kubadan olan müşavirlərin ölkədən çıxarılmasını tələb edib. "The New York Times" qəzetinin məlumatına görə, dövlət katibi Marko Rubio Konqres liderləri ilə qapalı görüşündə Donald Tramp administrasiyasının Venesuelanın müvəqqəti lideri Delsi Rodrigesə qarşı yeni tələbini açıqlayıb. Bu tələb Rusiya, Çin, İran və Kubadan olan kəşfiyyat və hərbi personalın ölkədən çıxarılması ilə bağlıdır. Marko Rubio, həmçinin Venesuelanın artıq ABŞ düşmənləri üçün strateji baza kimi xidmət edə bilməyəcəyini bildirib.

**Venesuela artıq ABŞ-a narkotik göndərməyəcək**

Dövlət katibi Marko Rubio, eyni zamanda, G7 ölkələrinin xarici işlər nazirləri ilə də Venesuela mövzusunda danışıb. Dövlət Departamentinin yaydığı məlumata əsasən, tərəflər ABŞ-ın Karib dənizindəki narkotik əleyhinə əməliyyatlarını, Nikolas Maduronun həbsini və Venesuelada hakimiyyətin düzgün və məntiqli şəkildə ötürülməsinin vacibliyini müzakirə ediblər.

Ağ Evin mətbuat katibi Kerolayn Livitt isə deyib ki, Venesuela artıq Amerika Birləşmiş Ştatlarına qanunsuz narkotik göndərməyəcək. O, bildirib ki, Venesuela əvvəlki kimi qanunsuz yollarla insanları və cinayətkar kartelləri ABŞ-a göndərə bilməyəcək, qaçaqmalçılıq etməyəcək. "Biz hazırda müvəqqəti hakimiyyət orqanları ilə sıx əlaqədəyik və onların qərarları Amerika Birləşmiş Ştatları tərəfindən diktə edilməyə davam edəcək",- deyə Livitt əlavə edib.

Bununla yanaşı, ABŞ Şimali Atlantikada Venesuela ilə əlaqəli olan əvvəllər "Bella-1" kimi tanınan "Marinera" neft tankerini ələ keçirib.Əməliyyat ABŞ Sahil Mühafizəsi və digər hərbi qurumlar tərəfindən icra olunub. ABŞ Sahil Mühafizəsi "kölgə donanması" kimi sanksiya siyahısına düşmüş eyni gəmini ötən ay Venesuela yaxınlığında ələ keçirməyə çalışsa da, uğursuz alınmışdı. ABŞ mənbələri hazırda gəminin üzərində Rusiya bayrağının olduğunu deyirlər. Qeyd edilir ki, dekabrın 31-də Rusiya Dəniz Gəmiçiliyi Reyestri yeni adı "Marinera" olan gəmini Rusiya gəmisi kimi qeyd edib.



ABŞ Cənub Komandanlığı, həmçinin bildirib ki, Karib dənizi yaxınlığındakı beynəlxalq sularda daha bir gəmi ələ keçirilib. Vurğulanır ki, "M/T Sophia" adlı gəmi Karib dənizində qanunsuz fəaliyyət göstərirdi.

Venesuela rəhbərliyi isə Karib dənizində ələ keçirilən neft tankeri ilə bağlı ABŞ-la əməkdaşlıq edir. ABŞ Dövlət katibi Marko Rubionun sözlərinə görə, Venesueladakı hakimiyyət anlayır ki, nefti daşımaq, gəlir əldə etmək və iqtisadi çöküşdən qaçmaq üçün yeganə yol ABŞ ilə əməkdaşlıq etməkdir.

**2 milyard dollar məbləğində Venesuela nefti...**

Bu arada, Karakas və Vaşinqton ABŞ-a 2 milyard dollar məbləğində Venesuela nefti ixrac etmək barədə razılığa gəliblər. Bu əsas razılaşma Çinə tədarükü ABŞ-a yönləndirəcək və Venesuelaya neft hasilatının daha dərin azaldılmasının qarşısını almağa kömək edəcək.

"Reuters" xəbər verir ki, razılaşma Venesuela hökumətinin Donald Trampın Amerika neft şirkətlərinə qarşı tələbinə cavab verdiyinə və ya daha çox hərbi müdaxilə riskini daşıdığına dair güclü bir əlamətdir. Tramp bildirmişdi ki, müvəqqəti Prezident Delsi Rodrigezdən ABŞ və özəl şirkətlərə Venesuelanın neft sənayesinə tam giriş verməsini istəyir.

Venesuela ABŞ Prezidentinin dekabr ayının ortalarından bəri tətbiq etdiyi ixrac blokadası səbəbindən milyonlarla barel nefti tankerlərdə, habelə saxlama çənlərində saxlayır və boşalda bilmir.

Blokada Vaşinqtonun Venesuela Prezidenti Nikolas Maduro hökumətinə artan təzyiqinin bir hissəsi idi və yanvarın 3-də onun ABŞ qüvvələri tərəfindən tutulması ilə nəticələnib. Yüksəkvəzifəli Venesuela rəsmiləri Maduronun tutulmasını adam oğurluğu adlandırıb və ABŞ-ı ölkənin geniş neft ehtiyatlarını ələ keçirməyə cəhd etməkdə ittiham etmişdilər.

Donald Tramp isə sosial media paylaşımında elan edib ki, Venesuela ABŞ-a 30-50 milyon barel "sanksiyalı neft" tədarük edəcək. "Bu neft bazar qiymətinə satılacaq və həmin pula Amerika Birləşmiş Ştatlarının Prezidenti kimi mən nəzarət edəcəyəm ki, onun Venesuela və ABŞ xalqlarının rifahı üçün istifadə olunmasını təmin edim", - deyə o əlavə edib. Trampın açıqlamasından sonra ABŞ-da neft qiymətləri 1,5 faizdən çox düşüb. Belə ki, sözügedən razılaşmanın Venesuelanın ABŞ-a neft ixracını artıracağı gözlənilir.

Hazırda bu neft axını tamamilə ABŞ-ın icazəsi ilə fəaliyyət göstərən Venesuelanın dövlətə məxsus neft və qaz şirkəti PDVSA-nın əsas birgə müəssisə tərəfdaşı olan "Chevron" tərəfindən idarə olunur.

**Nəzarət davam edəcək**

Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp Venesuelada vəziyyət sabitləşdikdən sonra bu ölkəyə səfər etmək istəyir. "The New York Times" qəzeti bu barədə Birləşmiş Ştatların dövlət başçısına istinadla məlumat yayıb. Bundan əlavə, Donald Tramp Vaşinqtonun Venesuelaya nəzarətinin bir ildən çox davam edə biləcəyini bildirib.

# Türk Ticarət-Sənaye Palataları Birliyinə Qazaxıstan sədrlik edəcək



2026-cı ildə Türk Ticarət və Sənaye Palataları Birliyinə (TCCI) sədrliyi Qazaxıstan Respublikası edəcək. Bu barədə təşkilatın Baş Assambleyasında məlumat verilib. Qeyd olunub ki, 2026-cı ildə TCCI-yə sədrliyi dövründə Qazaxıstan sənaye əməkdaşlığı sahəsində praktik layihələrin həyata keçirilməsinə, birgə layihələr portfelinin qurulmasına və Orta Dəhliz və "Şimal-Cənub" dəhlizi də daxil olmaqla nəqliyyat və logistika dəhlizlərinin inkişafına diqqət yetirməyi planlaşdırır. Raimbek Batalov 2026-cı il üçün bir il müddətinə Türk Ticarət və Sənaye Palatasının (TCCI) prezidenti təyin edilib. Onun sözlərinə görə, türk istiqaməti Qazaxıstanın xarici iqtisadiyyatda prioritetlərindən biridir.

"Vurğulamaq vacibdir ki, bu dinamika daha yüksək əlavə dəyərli məhsulların tədarükünün genişlənməsi ilə əlaqədardır. Taxıl, neft-kimya məhsulları, qida məhsulları və emal olunmuş materialların ixracı əhəmiyyətli dərəcədə artıb. Bu, sadə ticarətdən daha mürəkkəb sənaye və aqrar-sənaye əməliyyatları formalarına keçidi və birgə istehsal zəncirləri üçün təməllərin yaradılmasını göstərir", - deyə Batalov qeyd edib.

Xatırladaq ki, 2025-ci ilin yanvar-oktyabr aylarının sonuna qarşılıqlı ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 10 faizdən çox artımla 11 milyard dollara çatıb. Qazaxıstanın ixracı 16,6 faiz artaraq 7,9 milyard dollara çatıb.

Türk Ticarət və Sənaye Palataları Birliyi 2019-cu ildə yaradılıb. Onun əsas məqsədi türk ölkələri arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Birliyə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Türkmənistan və Macarıstan daxildir. Türk iqtisadi məkanı hazırda 180 milyondan çox insanı əhatə edir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Qələmlə şəhid olmaq!

## Salatın Əsgərovanın vəfatından 35 il ötür

20-ci əsrin sonlarında Azərbaycanın taleyinin sınağa çəkildiyi bir dövrdə Salatın Əsgərova informasiya cəbhəsində döyüşən bir əsgər idi. Silahsız, amma qələmi ilə. Bu qələm bəzən silahdan daha təsirli, daha təhlükəli idi. Qarabağ hadisələri zamanı yazdığı reportajlar sadəcə xəbərlər deyildi, onlar vicdana ünvanlanmış çağırışlar idi. O yazılarda ağrı vardı, qəzəb vardı, amma ən çox da həqiqət vardı. Həqiqət isə çox vaxt risklidir...

Qələbə hər bir xalqın vahid hədəf uğrunda mübarizəsi zamanı qazanılır. Bu mənada, vətəndaşların öz fəaliyyət sahəsində xalqının, dövlətinin maraqlarını qoruması, bu uğurda bütün gücünü səfərbər etməsi, hətta can verməsi qalibiyyətin ən ümdə şərtlərindəndir. Tarix boyu ermənilərin Azərbaycana qarşı əsassız iddiaları, sonradan hərbi təcavüzü xalqımızı bir nəfər kimi mübarizəyə köklədi. Hər kəs öz sahəsində Vətənin azadlığı, Azərbaycan həqiqətlərinin yayılması uğrunda döyüşə atıldı. Bu mübarizənin önündə isə əli silahlı əsgərlərimizlə yanaşı, əli qələmli jurnalistlərimiz də döyüşürdü.

Salatın Əsgərova tez-tez cəbhə xəttinə gedər, qaynar nöqtələrdən operativ materiallar hazırlayardı. Ailəsi, iş yoldaşları, yaxınları ondan bərk nigaran qalar, döyüş bölgəsinə getməyinə mane olmağa çalışardı, lakin bu cəhdlər heç bir nəticə verməzdi. Çünki Salatın Əsgərovanı cəbhə xəttinə çağıran səs daha qüvvətli idi. Bu, darda qalan, övladlarının sevgi və fədakarlığına ehtiyac duyan Vətənin səsi idi...



### Peşəsinə sadiq qorxmaz qadın!

Onun köksündə Vətən sevgisi ilə dolu bir ürək döyünürdü, buna görə də o səsə biganə qala bilməzdi. Ailəli idi, bir oğlu vardı, hər gün öpüb-qucaqlayıb bağrına basdığı, həyatının anlamı bildiyi övladı üçün canını qurban verərdi. Amma o, övladını azad və xoşbəxt vətəndə böyütmək istəyirdi. Buna görə də Qarabağda gedən gərgin döyüşləri aləmə hayqırmaq, səsini hamıya çatdırmaq üçün cəbhə bölgəsinə gedirdi. Peşəsinə sadiq olan bu qorxmaz qadın Qarabağın ən odlu nöqtələrində olurdu. "Molodyoj Azerbaydjana" qəzetinin oxucuları onun doğma torpağa məhəbbət, azğın düşmənə nifrətlə dolu oçerklərini, yol qeydlərini səbirsizliklə gözləyirdilər. Onun həqiqəti söyləyən, erməni faşizminin iç üzünü açan yazıları düşmənin qəlbinə ox kimi sancılırdı...

### Sonuncu reportaj...

Onun fəaliyyətindən söz açmağımız əbəs deyil, çünki bu gün Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın şəhid olduğu gündür.

S.Əsgərovanın müharibənin qaynar nöqtələrindən hazırladığı reportajlar geniş oxucu kütləsi qazanmışdı. O, öz imzası ilə tanınır və sevilirdi. Amma... 1991-ci il yanvarın 9-da yenə səfərə yola düşdü. Növbəti reportajını hazırlamaq, həqiqəti çatdırmaq, Vətənə heç olmasa qələmi ilə yardım etmək üçün. Laçından Şuşaya gedərkən yolun 6-cı kilometrliyində - Qaladərəsi kəndi yaxınlığında düşmən onun olduğu maşını yaxın məsafədən atəşə tutdu, Salatın Əsgərova elə hadisə yerindəcə həlak oldu.

Vəfatından sonra Azərbaycanın qəhrəman qızı Bakıda Şəhidlər Xiyabanında dəfn olundu. Ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Hazırda Bakı şəhərində adına bir küçə var. Bakı buxtasındakı gəzinti katerlərindən biri də onun adını daşıyır.

### O, haqqın tərəfində idi...

Onun jurnalistikasını fərqləndirən əsas cəhət tərəfsizliyin arxasında gizlənən laqeydlikdən uzaq olması idi. Salatın Əsgərova tərəfsiz deyildi, o, haqqın tərəfində idi. Bu isə klassik jurnalistika qaydalarından daha yüksək, daha mənəvi bir mövqedir. Çünki bəzi tarixi anlarda susmaq da tərəf olmaq deməkdir.

Salatın Əsgərovanın şəhidliyi onu zamanın fövqünə qaldırdı. O, həyatını itirmədi, həyatını mənalandırdı. Bu gün adı çəkiləndə yalnız faciə yox, həm də nümunə xatırlanır. Salatın Əsgərova gənc jurnalistlər üçün bu peşənin məsuliyyətli tərəfinin simvoludur!

*Yeganə BAYRAMOVA*

# İnfeksionist: Epidemioloji durum nəzarət altındadır, əlavə tədbirlərə ehtiyac duyulmur




"Ölkəyə Səhiyyə Nazirliyi tərəfindən gətirilmiş Avropa istehsalı olan qrip peyvəndi kifayət qədər effektiv və təhlükəsizdir. Qripin epidemioloji fəsli artımı başlamazdan əvvəl vaksinasiyaya start verilməlidir. Bu, bizdə sentyabr ayından aparılır və bu günə qədər davam etdirilir. Peyvəndlər yaşayış və ya iş yeri üzrə ərazidə yerləşən ambulator-poliklinik tibb xidməti göstərən müəssisələrə paylanılıb və əhali yalnız müraciət əsasında ödənişsiz qaydada bundan yararlanır".

Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov bildirib. Onun sözlərinə görə, vaksinasiyanın əsas hədəfi infeksiyanın risk qruplarıdır. "Bunlar 5 yaşadək olan uşaqlar, hamilələr, ağır xroniki xəstəlikləri, müxtəlif səbəbli immun çatışmazlığı olan insanlar və yaşı 65-dən çox olanlardır. Peyvənd edilmiş şəxs infeksiyanın asimptomatik və ya yüngül formasını keçirir, ağır gedişat, fəsadlaşma və xəstəxanaya yatırılma halları daha az baş verir. Lakin bilməliyik ki, peyvəndin qoruyuculuğu 2 həftədən sonra formalaşır, bu dövr ərzində şəxs yoluxsa, xəstələnə bilər. Eyni zamanda, Səhiyyə Nazirliyi tərəfindən qrip və digər respirator virus infeksiyalarından qorunma yolları ilə bağlı mediada əhali mütəmadi olaraq məlumatlandırılır. Əhalinin, birinci növbədə risk qruplarının qripə qarşı vaksinasiya olunmasına çağırışlar edilir. Hazırda epidemioloji durum Səhiyyə Nazirliyinin qiymətləndirməsinə görə nəzarət altındadır. Əlavə tədbirlərə ehtiyac duyulmur", - deyə o vurğulayıb.

## İdman

### Fransalı futbolçu "Fənərbağça"da



Türkiyənin "Fənərbağça" klubunun "Latsio"dan (İtaliya) heyətinə qatdığı Matteo Genduzi İstanbula gəlib. AZƏRTAC xəbər verir ki, klub fransalı oyunçunun fotosunu paylaşıb. Türkiyə nəhəngi İtaliya klubuna 28 milyon avro təzminat ödəyəcək.

Qeyd edək ki, Matteo Genduzi karyerası ərzində ölkəsinin PSJ, "Loryan" və "Marsel" klublarında, eləcə də İngiltərənin "Arsenal" və Almaniyanın "Herta" komandalarında çıxış edib. Futbolçu Fransa yığmasında 14 oyun keçirib və 2 qol vurub.

### "Sabah" serbiyalı hücumçu ilə vidalaşıb




Sabah" komandası futbolçusu Neqoş Kupusoviçlə yollarını ayırıb. Klubdan AZƏRTAC-a bildirilib ki, serbiyalı hücumçu ilə müqaviləyə qarşılıqlı razılıq əsasında xitam verilib. 2024-cü ildən Bakı təmsilçisində çıxış edən Neqoş Kupusoviç bu müddət ərzində 29 oyun keçirib.

### Azərbaycanın iki yelkənçisi beynəlxalq turnirdə iştirak edəcək

Azərbaycanın iki yelkənçisi Türkiyənin Bodrum şəhərində keçiriləcək "Mandarin Cup" beynəlxalq turnirində iştirak edəcək. AZƏRTAC-ın əldə etdiyi məlumata görə, yarışda ölkəmiz iki qız idmançı ilə təmsil olunacaq. Bunlar Nərgiz Məmmədova və Nəzrin Məmmədovadır. Onlar yarışa türkiyəli məşqçi Mithat Can Yıldırımın başçılığı ilə qatılacaqlar. Qeyd edək ki,



"Mandarin Cup" beynəlxalq turniri yanvarın 13-dən 17-dək təşkil olunacaq.

### DÇ-də ofsayd qərarları üçün süni intellektdən istifadə ediləcək

FIFA bu il keçiriləcək dünya çempionatında ofsayd qərarlarının daha dəqiq verilməsi üçün süni intellektdən istifadə edəcəyini açıqlayıb.

AZƏRTAC "The Athletic"ə istinadən xəbər verir ki, turnirdə iştirak edəcək bütün futbolçular üçün süni intellekt əsaslı 3D rəqəmsal modellər yaradılacaq. Bunun üçün oyunçular qısa müddətdə xüsusi skandan keçiriləcək və bədən ölçüləri dəqiq şəkildə qeydə alınacaq. Yeni texnologiya sürətli epizodlarda və oyunçuların bir-birinin qarşısını kəsməsi nəticəsində görüntülərin aydın olmadığı hallarda ofsayd vəziyyətlərinin daha düzgün müəyyənləşdirilməsinə kömək edəcək. FIFA bu yeniliyin VAR tərəfindən verilən qərarların azarkeşlər və televiziya tamaşaçıları üçün daha aydın göstərilməsini təmin edəcəyini bildirib. Ofsayd qərarları yayım zamanı 3D görüntülərlə təqdim olunacaq.

Texnologiya ötən il Qitələrarası Kubokda sınaqdan keçirilib və müsbət nəticə verib. Yarıavtomatlaşdırılmış ofsayd sistemi daha əvvəl 2022-ci ildə Qətərdə təşkil olunan dünya çempionatında və 2023-cü ildə qadınlar arasında keçirilən mundialda da istifadə olunub. Sistem bir neçə kamera vasitəsilə futbolçuların mövqelərini və topun ötürülmə anını izləyir.

Bundan başqa, turnirdə iştirak edəcək 48 komandanın hamısına süni intellekt əsaslı oyun analiz cihazı təqdim olunacaq. Bu cihaz komandaların oyunöncəsi və oyunsonrası analizlərinin aparılmasına imkan verəcək. FIFA bildirib ki, bu addım komandalar arasında texnoloji bərabərliyin təmin olunmasına xidmət edir.

Qeyd edək ki, ABŞ, Kanada və Meksikanın ev sahibliyi edəcəyi DÇ-2026 iyunun 11-dən iyulun 19-dək keçiriləcək.

### Allah rəhmət eləsin!

Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat ETİ-nin kollektivi professor Arif Süleymanov və Ələkbər Süleymanova əzizləri tanınmış alim, AMEA-nın müxbir üzvü

**BAĞIR SÜLEYMANOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir


Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 493-16-94, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4313
Sifariş: 11
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova